30 mart 2018-ci il
№11 (8777)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**TDƏŞ orta məktəb şagirdlərinin ikinci mübadilə proqramı başa çatıb** ⇨səh.2

**Səriştə əsaslı kurikulumların təqdimatı** ⇨səh.3

**Müəllim haqqında ehtiyatla danışaq** ⇨səh.5

**Düzgün idarəetmənin keyfiyyətə təsiri** ⇨səh.5

# Müddətsiz əmək müqaviləsi ilə işləmək üçün yeni imkan

## Proses mərkəzləşdirilmiş qaydada həyata keçiriləcək



Təhsil Nazirliyi Müəllimlərin İşə Qəbulu (MİQ) ilə bağlı obyektivliyi və şəffaflığı təmin etmək məqsədilə daha bir yeniliyə imza atıb. Belə ki, respublikanın ümumi təhsil müəssisələrində müddətli əmək müqaviləsi əsasında çalışan müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanılması prosesinə start verilib. Bu məqsədlə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun nəzdində fəaliyyət göstərən İnsan Resursları Mərkəzi tərəfindən müsahibələrin keçirilməsi nəzərdə tutulur.

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Eşqi Bağırovun sözlərinə görə, sözügedən müsahibələrdə yalnız 2016-2017 və 2017-2018-ci tədris illəri üçün keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək zəruri keçid balını toplayan, tutulmayan və ya yeni yaranan vakant yerlərdə mövcud qaydalar çərçivəsində müddətli əmək müqaviləsi ilə işə qəbul edilmiş müəllimlər iştirak edə biləcəklər.

Aparılan təhlillərdən sonra belə müəllimlərin sayının təxminən 1500 nəfərə yaxın olduğu müəyyənləşib: "Həmin müəllimlərin əmək müqavilələrini müddətsiz müqaviləyə keçirmək məqsədilə martın 29-dan artıq elektron qeydiyyat başlayıb. Namizədlərdən tələb olunur ki, müəllimlərin işə qəbulu ilə bağlı mövcud portal vasitəsilə qeydiyyatdan keçsinlər.

⇨Ardı səh.2

# 1918-ci il azərbaycanlıların soyqırımı və onun tədrisi məsələləri

XX yüzilliyin son onilliyində Azərbaycanın dövlət müstəqilliyinin yenidən bərpa və inkişafı tarixin, o cümlədən Vətən tarixinin müasir metodoloji yanaşmalar əsasında öyrənilməsi üçün əlverişli zəmin yaratdı. Müstəqilliyin töhfələrindən biri də budur ki, vaxtilə öyrənilməsi mümkün olmayan, diqqətdən kənarda saxlanan bir sıra tarixi məsələlər arxiv sənədləri əsasında tədqiq olunur, dərslik və dərs vəsaitlərində əksini tapır, böyüməkdə olan nəsillərə çatdırılır. Bu baxımdan azərbaycanlıların soyqırımına aid məsələlərin öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Tarixi tədqiqatlar göstərir ki, azərbaycanlıların soyqırımının həyata keçirilməsi üçün həmişə məqsədli planlar hazırlanmış və bu planları reallaşdırarkən ermənilər öz havadarlarına arxalanmışlar. 1813-cü il 12 oktyabr Gülüstan və 1828-ci il 10 fevral Türkmənçay müqavilələrindən sonra ermənilərin Cənubi Qafqaza, Azərbaycan torpaqlarına köçürülmələri gələcəkdə yaşanacaq faciələrin əsasını qoymuşdur.

XX əsrin əvvəllərində, Birinci Dünya müharibəsi illərində erməni xəyanətkarlığı özünü daha aşkar şəkildə göstərməyə başladı. Həmin dövrdə çar Rusiyasının dəstəyinə arxalanan erməni cəlladları Şimali və Cənubi Azərbaycanda, Şərqi Anadolu ərazisində müsəlman-türk əhalisinə qarşı soyqırımı törətdilər. Onlar bu ərazidə yerli xalqları - müsəlman-türkləri qırıb məhv etmək və "Böyük Ermənistan" dövləti yaratmaq istəyirdilər. Bu çirkin niyyətlərini həyata keçirmək üçün ermənilər uşaqlara, qadınlara, qocalara aman vermir, onları vəhşicəsinə qətlə yetirirdilər. Tarixi faktlar göstərir ki, 1905-1907, 1918-1920-ci illərdə, sovet hakimiyyəti dövründə və sonrakı illərdə də azərbaycanlılar dəfələrlə soyqırımına məruz qalmış və bu soyqırımlarını törədənlər ermənilər olmuşlar.

Təəssüfləndirici haldır ki, sovet dövründə real tarix saxtalaşdırılmış və azərbaycanlılara qarşı törədilən soyqırımlar tarix kitablarına salınmamış, qaniçən erməni cəlladlarının bəzisi isə "xalq adamı" kimi qələmə verilmişdir. Bunlardan biri Stepan Şaumyan olmuşdur.

⇨Ardı səh.4

# Diplomsuz gələcək

## Dəyişən təhsilə indidən uyğunlaşmayan gecikəcək

2017-ci ilin sonlarında Rusiyanın aparıcı bankları 3 min nəfərədək hüquqşünası ixtisar etmək barədə qərar qəbul etdi. Qərara dünyada tüğyan edən maliyyə böhranı təsir etməmiş deyildi, ancaq əsas səbəb başqa idi: banklarda və iri maliyyə institutlarında hüquqşünasların gördüyü işlərin böyük əksəriyyətini süni intellekt etməyə başlayıb - xüsusi alqoritmlərlə. Yapon əsilli amerikalı futuroloq Mitio Kaku da hesab edir ki, yaxın illərdə tarixə qovuşacaq ixtisaslar sırasında ön cərgədə məhz hüquqşünaslar dayanır.

### Yaddaşa ehtiyac qalmayacaq

M.Kaku özünün "Gələcəyin fizikası" kitabında yazır ki, tezliklə təhsil internet-texnologiyalar və "GoogleGlass" tipli qadjetlərə "köçəcək". Onun fikrincə, belə bir təhsildə yaddaşa ehtiyac qalmayacaq. Tezliklə "GoogleGlas" eynəkləri və ümumiyyətlə, kompüterdə olan bütün məlumatlar kiçik linzalara yerləşdiriləcək. İnsanlar onlara lazım olan bütün məlumatları bu linzalardan əldə edə biləcəklər. Artıq mövcud olan əlavə edilmiş reallıq eynəklərinin belə funksiyaları var. Ona görə də yaxın illərdə məktəblilər və tələbələr onları maraqlandıran məlumatların əldə edilməsi üçün internetə girməyə ehtiyac duymayacaqlar: "Gözünüzü açıb-bağlamağınız kifayət edəcək - lazımi informasiya linzalar vasitəsilə sizin olacaq. Bu, bir tərəfdən imkan verəcək ki, beyinlər artıq informasiya ilə yüklənməsin, onsuz da onların əksəriyyəti sonrakı həyatda heç kimə lazım olmur. Digər tərəfdən, boşalmış zehni ehtiyat düşünmək, analiz etmək, arqumentləşdirmək və nəticədə düzgün qərar vermək istiqamətində istifadə olunacaq".

Kakunun öncəgörməsinə əsasən, bu proses onunla nəticələnəcək ki, müəllimlərə ya ehtiyac olmayacaq, ya da indiki qədər zərurət duyulmayacaq. "İnsanlar daha sərbəst olacaqlar, onların "nəzarət edən orqan"a ehtiyacı olmayacaq. Özləri özlərinə təhsil verəcək, özləri də müəyyən edəcəklər ki, onlara hansı qəbildən informasiya ehtiyacdır. Yox, əgər məsləhət lazım olacaqsa, onu misal üçün, "ağıllı divar"dan ala biləcəklər. Təəccüblənməyin, yaxın vaxtlarda süni intellekt üzərində fəaliyyət göstərəcək belə qurğular hər yerdə mövcud olacaq - mənzillərdə, ofislərdə, küçələrdə. Divara yaxınlaşıb soruşmağınız kifayət edəcək: Mən biologiya professoru ilə danışmaq istəyirəm. Elə bu andaca divarda həmin o professoru görəcəksiniz və o sizi maraqlandıran bütün suallara cavablandıracaq. Belə texnologiyalar tək təhsildə deyil, həm də tibb, hüquq, dizayn, psixologiya sahələrində də olacaq. Düzdür, real mütəxəssislərsiz mümkün olmayacaq, məsələn, cərrah olacaq, ancaq sadə tibbi problemlər virtual yolla həlli ni tapacaq".

⇨Ardı səh.8



# "Öyrətmək üçün öyrənmək əsas məqsədimdir"

## *Hökmran Qocayev:*

## "Müəllimlik cəmiyyətin gələcəyini düşünənlərin peşəsidir"

Səh.6

## Tərbiyə məktəbinin əsası

Təhsildə mənəviyyat məsələlərinə böyük önəm verən humanist pedaqogika insanın formalaşmasında ailənin rolunu böyük dəyərləndirir. Bu pedaqogikaya görə, ailə göylərin və Yerin, kişilərin və qadınların, valideynlərin və uşaqların, sələflərin və xələflərin öz nəslinə və bəşəriyyətə fayda gətirən xoşbəxt insanın tərbiyəsi üçün nəzərdə tutulan birliyidir. Xoşbəxt ailə sevgi, mənəvi birlik, əməkdaşlıq, qarşılıqlı hörmət, qarşılıqlı anlama prinsipləri əsasında qurulur. Ailə elə bir yoldur ki, öz təyinatını anlamaqda və buna uyğun hərəkət etməkdə hamı bir-birinə kömək edir. Görünür, elə buna görə də humanist pedaqogikanın ötən ilin yayında qəbul olunmuş çağırışlarından iqtibas etdiyimiz bu fikirlər, ümumilikdə ailə məsələləri Beynəlxalq Humanist Pedaqogika Mərkəzinin ənənəvi olaraq hər il keçirdiyi Beynəlxalq pedaqoji oxuların növbəti tədbirinin müzakirə mövzusu olub. Sayca XVII olan builki pedaqoji oxular 23-25 mart tarixlərində Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) keçirilib. "Beynəlxalq Assosiasiya" İctimai Birliyinin Humanist Pedaqogika Beynəlxalq Mərkəzinin, ADPU-nun və Azərbaycan Respublikasının Humanist Pedaqogika Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan pedaqoji oxular "Ailə insan mədəniyyətinin beşiyidir" mövzusuna həsr olunub.

⇨Ardı səh.3

## Ən böyük tələbə yataqxanası istifadəyə veriləcək



Təhsil Nazirliyinin təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) balansında olan ərazidə tələbələr üçün yataqxana kompleksinin tikintisi davam edir. Ən müasir standartlara uyğun inşa olunan yataqxanada yalnız ADNSU-nun tələbələri deyil, Bakıda yerləşən digər ali məktəblərdə təhsil alan və yataqxanaya ehtiyacı olan tələbələr müvafiq kvotaya əsasən yerləşmək imkanı qazanacaqlar. Yataqxana binası 800 nəfərə yaxın tələbə, həmçinin müəllim üçün nəzərdə tutulub. 0,8 hektar ərazini əhatə edən yataqxana binasının ümumi sahəsi 21 min kvadrat metrdən çoxdur. Binada kitabxana, oxu zalı, istirahət otaqları, camaşırxana, yeməkxana, fitnes zalı da fəaliyyət göstərəcək.

Yataqxananın növbəti tədris ilində istifadəyə verilməsi nəzərdə tutulub.

# Lənkəran, Lerik və Astara rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

**1.** Lənkəran, Lerik və Astara rayonlarında cəmi 860 şagird yerlik modul tipli 16 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4942000 (dörd milyon doqquz yüz qırx iki min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 21 mart 2018-ci il*

### Lənkəran, Lerik və Astara rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 mart tarixli Sərəncamına Əlavə*

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Lənkəran rayonu Köhnəgəgir kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 2 | Lənkəran rayonu Jidi kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 3 | Lənkəran rayonu Alazəpin kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 4 | Lənkəran rayonu Türkəncil kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 330 000 |
| 5 | Lerik rayonu Sivəkəran kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 6 | Lerik rayonu Küsəkəran kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 7 | Lerik rayonu Vov kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 8 | Lerik rayonu Monidigah kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 9 | Lerik rayonu Kirəvud kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 10 | Lerik rayonu Zövnə kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 11 | Lerik rayonu Vılıq kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 12 | Lerik rayonu Vamazğon kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 13 | Lerik rayonu Kaqoy kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 14 | Lerik rayonu Conu kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 15 | Astara rayonu Şəmətük kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 16 | Astara rayonu Doli kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 260 000 |
| | **Cəmi** | **4 942 000** |

# Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

**1.** Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında cəmi 824 şagird yerlik modul tipli 12 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4172000 (dörd milyon yüz yetmiş iki min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 mart 2018-ci il

### Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 mart tarixli Sərəncamına Əlavə*

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Biləsuvar rayonu Muğankənd kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 2 | Neftçala rayonu Mirzəqurbanlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 3 | Neftçala rayonu Qaraqaşlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 4 | Neftçala rayonu Eldar Rəhmanov adına Aşağı Surra kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 5 | Neftçala rayonu Rövşən Babayev adına Xoltəzəkənd kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 6 | Neftçala rayonu Xolqaraqaşlı kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 7 | Neftçala rayonu Qazaxbərəsi kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 8 | Neftçala rayonu Pirəbbə kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 9 | İmişli rayonu Muradxanlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 10 | Saatlı şəhər 1 nömrəli 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 11 | Beyləqan rayonu Əhmədli kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 12 | Beyləqan rayonu Gödəklər kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| | **Cəmi** | **4 172 000** |

# TDƏŞ orta məktəb şagirdlərinin ikinci mübadilə proqramı başa çatıb

17-24 mart 2018-ci il tarixlərində Azərbaycanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) çərçivəsində orta məktəb şagirdlərinin ikinci mübadilə proqramı həyata keçirilib.

Azərbaycanın ev sahibliyi etdiyi “TDƏŞ orta məktəb şagirdlərinin ikinci mübadilə proqramı”na Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstandan olan 38 şagird və 6 təlimçi qatılıb.

Tədbirin açılış mərasimində təhsil nazirinin müavini Firudin Qurbanov, TDƏŞ Katibliyinin, Türkiyə və Qırğızıstanın ölkəmizdəki səfirliklərinin nümayəndələri, mübadilə proqramının iştirakçıları və KİV təmsilçiləri iştirak edib.

Mərasimdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov qonaqları salamladıqdan sonra mübadilə proqramı iştirakçılarının türk dünyasının ortaq dəyərlərindən olan Novruz bayramı zamanı Azərbaycana səfərinin və bayram adət-ənənələri ilə tanış edilməsinin böyük önəm daşıdığını vurğulayıb. Nazir müavini proqrama əsasən, iştirakçılara zəngin multikultural dəyərlərə, mədəniyyətə və tarixə malik olan Azərbaycan haqqında məlumat veriləcəyini, müvafiq sahələr üzrə aparıcı mütəxəssislər tərəfindən təlim və mühazirələr keçiriləcəyini deyib.

Türk Şurasının digər beynəlxalq təşkilatlarla müqayisədə gənc bir təşkilat olduğu, lakin qısa müddətdə öz fəaliyyətini genişləndirdiyi barədə məlumat verən nazir müavini bunun əsas səbəbini üzv dövlətlərin ortaq tarix və mədəniyyətə malik olması ilə əlaqələndirib.

Nazir müavini mübadilə proqramının şagirdlərə Türk Şurasına üzv ölkələrdən olan həmyaşıdları ilə dostluq əlaqələri qurmağa və bu əlaqələri gələcəkdə də davam etdirməyə şərait yaratdığını vurğulayıb. Həyata keçirilən tədbirlərin ölkələrimiz arasında təhsil sahəsində əlaqələrin daha yüksək mərhələyə çatmasında əhəmiyyətini diqqətə çatdıran Firudin Qurbanov ortaq türk dəyərlərinin gənclərimiz tərəfindən dərk edilməsinə verdiyi töhfə üçün Türk Şurasına minnətdarlığını ifadə edib.

Mərasimdə çıxış edən TDƏŞ Katibliyinin layihə rəhbəri Yıldız Uzakova və Türkiyə Respublikasının ölkəmizdəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri Abdulqafur Büyükfırat Türk Şurasının ölkələrimiz arasında bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də qarşılıqlı əməkdaşlığı inkişaf etdirməyə geniş imkanlar yaratdığını bildiriblər.

TDƏŞ orta məktəb şagirdlərinin ikinci mübadilə proqramı iştirakçılarının ilk günü Fəxri Xiyaban və Şəhidlər Xiyabanına ziyarəti ilə başlayıb.

Daha sonra ADA Universitetində təşkil edilmiş “Cümhuriyyət 100” adlı mühazirədə proqram iştirakçılarına dövlətimizin yaranma tarixi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə görülmüş işlər, müstəqilliyimizin bərpasından sonra əldə edilmiş nailiyyətlər barədə söhbət açılıb.

“Türk dünyası ortaq mədəni dəyərlər mövzusunda təqdimat”ı dinləyərək şagirdlər Türk dünyasının tarixi, ortaq dəyərləri, həmçinin TDƏŞ-in tarixi və hazırkı əməkdaşlıq istiqamətləri üzrə ətraflı məlumat əldə ediblər.

Milli Azərbaycan Tarixi Muzeyi, həmçinin Şirvanşahlar sarayını ziyarət edən proqram iştirakçıları ən qədim zamanlardan bu günə qədər ölkəmizin tarixi ilə yaxından tanış olublar.

Proqram iştirakçıları 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə ucaldılmış Quba Soyqırımı Memorial Kompleksini ziyarət edərək, ermənilər tərəfindən törədilmiş vəhşiliklərin əyani şahidi olublar.

Dünyanın ən qədim yaşayış məskənlərindən biri kimi Azərbaycanı yaxından tanımaq üçün proqram iştirakçılarının Qobustan Milli Tarix Bədii Qoruğu, “Qala” Tarix-Etnoqrafiya Qoruğu, “Atəşgah Məbədi” Dövlət Tarix-memarlıq Qoruğuna səfərləri təşkil edilib, həmçinin onlara ölkəmizdə multikultural ənənələrin və tolerantlığın qorunub saxlanması barədə bilik aşılanıb.






Proqram iştirakçıları Müasir Azərbaycanın rəmzlərindən olan, keçmişlə gələcəyin həmahəngini təcəssüm etdirən Heydər Əliyev Mərkəzi, ölkəmizin xalçaçılıq ənənələrini özündə əks etdirən Xalça Muzeyi, həmçinin YARAT Müasir İncəsənət mərkəzinə səfər edərək Azərbaycanın müasir incəsənəti, tarixi, milli adət-ənənələri ilə yaxından tanış olublar.

Mübadilə proqramı 17-24 mart tarixlərində keçirildiyindən proqram iştirakçıları xalqımızın ən qədim bayramlarından biri olan Novruz bayramını birlikdə qeyd edərək Novruz adət-ənənələri ilə yaxından tanış olmaq imkanı qazanıblar.

Proqram çərçivəsində şagirdlər “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Bakı Dənizkənarı Milli Parka səfər edib, həmçinin bütün proqram ərzində həmyaşıdları ilə ünsiyyət qurmaq və asudə vaxtlarını səmərəli keçirmək imkanı əldə ediblər.

24 mart tarixində TDƏŞ orta məktəb şagirdlərinin ikinci proqramı başa çatıb.

Qeyd edək ki, 5 sentyabr 2015-ci il tarixində TDƏŞ-ə üzv ölkələrin təhsil nazirlərinin Astana şəhərində keçirilmiş dördüncü görüşündə “TDƏŞ çərçivəsində orta məktəb şagirdlərinin mübadilə proqramının qaydaları” adlı sənəd qəbul edilib. Bu sənədə əsasən, 2016-cı il aprelin 4-dən 14-dək birinci mübadilə proqramı çərçivəsində üç ölkənin (Azərbaycan, Qazaxıstan, Qırğızıstan) şagirdləri Türkiyəyə səfər ediblər.

# Müddətsiz əmək müqaviləsi ilə işləmək üçün yeni imkan

## Proses mərkəzləşdirilmiş qaydada həyata keçiriləcək

⇦ Əvvəli səh.1

Niyazi RƏHİMOV

Qeydiyyatın son tarixi 4 apreldir. Qeydiyyat başa çatdıqdan sonra biz həmin müəllimlərin bəzi şərtlərə uyğun olub-olmamasını araşdıracağıq. Şərtlərdən ən əsası həmin müəllimlərin mütləq şəkildə müəyyən edilmiş keçid balını toplamasıdır. Bundan başqa, namizədlərin çalışdıqları müəssisələrdə vakant yerlər mövcud olmalıdır. Onların tədris etdikləri dərs yükü sosial məzuniyyət və yaxud sağlamlıq durumu ilə bağlı işdən uzaqlaşmış digər müəllimlərin dərs yükü olmalı deyil. Təbii ki, bu meyarlar uyğun gəldikdən sonra namizədlər müsahibəyə dəvət olunacaqlar. Müsahibədən də uğurla keçən müəllimlərin əmək müqavilələri daimiləşəcək”.

Bütün namizədləri qeydiyyatdan keçməyə çağıran E.Bağırov onu da bildirib ki, qeydiyyatdan keçməyən müəllimlərin sonradan müraciətlərinə baxılmayacaq.

Prosedur qaydalardan da söhbət açan müdir müavini qeyd edib ki, qeydiyyatdan keçən namizədlərə növbəti mərhələ ilə bağlı şəxsi səhifədə məlumat veriləcək. Şərtlərə cavab verməyən müəllimlərə imtina, şərtlərə cavab verənlərə isə müsahibənin keçirilmə tarixi və ünvanı deyiləcək.

E.Bağırov keçid balları ilə bağlı məsələlərə də toxunub: “Həvəsləndirmə tədbirləri tətbiq olunmayan müəssisələrə fizika, fiziki tərbiyə və təsviri incəsənət fənləri üzrə keçid balı 42, musiqi fənni üzrə 30, həvəsləndirmə tədbirləri tətbiq olunan müəssisələrə fizika, fiziki tərbiyə və təsviri incəsənət fənləri üzrə keçid balı 36, musiqi fənni üzrə isə 24 bal müəyyənləşdirilib. Digər fənlər üzrə keçid balları müvafiq olaraq 36 və 48 bal müəyyən edilib”.

Müddətli müqavilə ilə çalışan müəllimlərin daimi işlə təmin olunması məsələsi gələcəkdə də bu qaydada həyata keçiriləcək. E.Bağırov bildirir ki, 2018-ci ildə keçiriləcək MİQ müsabiqəsində vakant yerlər qalarsa və həmin vakant yerlərə müddətli müqavilə əsasında müəllimlər götürülərsə, gələn il bu qaydada onların müddətsiz işə qəbulu məsələsinə baxılacaq.

Şöbə müdirinin müavini prosesin ilk dəfə mərkəzləşdirilmiş qaydada keçirildiyini də xüsusi vurğulayır: “Əvvəlki illərdə müddətli müqavilə ilə çalışanlar daimi iş yerinə düzəlmək üçün Təhsil Nazirliyinə şifahi, ərizə və ya elektron formada müraciətlər edirdilər. Biz bu müraciətlər əsasında həmin müəllimlərin məsələsinə baxırdıq. Elə bu müraciətlərin sayının çoxalmasını nəzərə alaraq qərara gəldik ki, həmin müəllimlərin mərkəzləşmiş qaydada, elektron proqram təminatı vasitəsilə birdəfəlik daimiləşmə məsələlərini həll etsək daha düzgün, şəffaf, obyektiv olar”.

Namizədlərin müraciətlərindən sonra saya uyğun olaraq komissiyaların təşkil ediləcəyini deyən E.Bağırov müsahibə proqramları və materiallarını tam mənimsəyən, peşəkarlıq səviyyəsi yüksək olan müəllimlərin daimi işlə təmin olunacağını vurğulayır: “Komissiyaların tərkibində Təhsil Nazirliyinin nümayəndəsi, həmin ixtisasdan olan tanınmış bir müəllim və məktəb direktoru olacaq”.

Qeyd edək ki, müsahibə proqramı və materialları barədə məlumatlar *http://www.miq.edu.az/muqavile/* saytında yerləşdirilib.

# Tərbiyə məktəbinin əsası

⇦ Əvvəli səh.1

## XVII Beynəlxalq Pedaqoji Oxular "Ailə insan mədəniyyətinin beşiyidir" mövzusuna həsr olunub

Yusif ƏLİYEV





Qeyd edək ki, pedaqoji oxuların müəllifi müasir humanist pedaqogikanın banisi, Beynəlxalq Humanist Pedaqogika Mərkəzinin fəxri prezidenti, Rusiya Təhsil Akademiyasının akademiki, Rusiya Federasiyası Hökumətinin təhsil sahəsində iki dəfə mükafatçısı, psixologiya elmləri doktoru, professor, yazıçı Şalva Amonaşvilidir.

### 10-dək ölkədən 320 dinləyici

Pedaqoji oxuların plenar iclasını rektor Cəfər Cəfərov açaraq bildirib ki, humanist pedaqogika üzrə XVII Beynəlxalq oxularda 10-dək xarici ölkədən 320 dinləyici iştirak edir. Beynəlxalq tədbirin işə başladığı tarixi universitetlərinin həyatında əlamətdar gün kimi dəyərləndirən rektor "Belə ciddi və nüfuzlu heyətdə beynəlxalq oxuların keçirilməsi bizim üçün çox şərəflidir", - deyə bildirib. Professor C.Cəfərov ümummilli lider Heydər Əliyevin müəllim haqqında dediyi "Mən Yer üzündə müəllimdən yüksək ad tanımıram" sözlərini xatırladaraq pedaqogika elminin mahiyyətini, məzmununu təşkil edən insanların tərbiyə edilməsi kimi xeyirxah, nəcib, məsuliyyətli, şərəfli bir işdə məhz müəllimlərin əvəzsiz rol oynadığını deyib. 2002-ci ildən keçirilən Beynəlxalq pedaqoji oxuların mövzularına diqqət çəkən rektor aktuallığı ilə seçilən həmin mövzuların humanist pedaqogikanın təşəkkülünə, inkişafına töhfə verdiyini söyləyib.

### Bəşəriyyət üçün təhlükə: tənhalıq hissi güclənir

Təbrik nitqində akademik Şalva Amonaşvili növbəti dəfə Azərbaycanda, Bakıda olmasından məmnunluğunu bildirib. Pedaqoji oxularda müzakirə edilən bütün məsələlərin, mövzuların təhsillə bilavasitə bağlı olduğunu deyən akademik budəfəki oxularda da məktəb-ailə-cəmiyyət üçlüyündə vacib həlqə, insan mədəniyyətinin beşiyi sayılan ailənin müxtəlif parametr və baxış bucaqlarından müzakirə olunacağını söyləyib.

Plenar iclasda, habelə, akademik Şalva Amonaşvilinin "Ailə. Uşaqlar. Həyat" mövzusunda çıxışı dinlənilib. Tanınmış alimin dediyinə görə, ailə yalnız sosial kateqoriya deyil, həm də təbiət kateqoriyasıdır: "Müasir dünyamız sürətlə dəyişir, yeniləşir, inkişaf edir. Çox əfsuslar olsun ki, hazırda cəmiyyətdə tənhalıq hissinin güclənməsi müşahidə edilir. Bu, cəmiyyət, bəşəriyyət üçün çox təhlükəlidir. İnsanın ailə mühiti, ailə hissləri olmadan yaşaması çətindir. Ailənin qorunub saxlanılması olduqca vacibdir".

Çıxışını ayrı-ayrı nümunələr əsasında quran akademik Ş.Amonaşvili bildirib ki, şagirdlərin tərbiyəsi pedaqoji ustalıq, həssaslıq, yüksək mədəni səviyyə tələb edir. Humanist pedaqogikaya görə, müəllim yalnız bilikləri öyrətməklə kifayətlənmir, o, şagirdlərə varlığını, ürəyinin işığını verir, onlar üçün fədakarlıqla çalışmağı özünün ali məqsədi, başlıca hədəfi bilir.

### Məktəblilərin funksional savadlılığının yüksəlməsində valideynlərin də əməyi var

Beynəlxalq pedaqoji oxuların iştirakçılarını Təhsil Nazirliyi adından salamlayan nazir vəzifələrini müvəqqəti icra edən, nazir müavini Ceyhun Bayramov Ş.Amonaşvilinin ədəbi və elmi əsərlərinin Azərbaycanda yaxşı tanındığını, Beynəlxalq Humanist Pedaqogika Mərkəzinin ölkəmizdə müxtəlif elmi-praktik konfranslar, seminarlar, ustad dərsləri və digər tədbirlər keçirdiyini bildirib. Beynəlxalq oxuların təhsil sahəsi üçün vacib olduğunu qeyd edən C.Bayramov ölkəmizdə ailənin dayanıqlı institut olduğunu, çox möhkəm əxlaqi bünövrəyə əsaslandığını və müqəddəs sayıldığını vurğulayıb. Nazir müavini Azərbaycan ailəsinin təhsil prosesinə cəlbinin müsbət effekt verdiyini, 2016-cı ildə aparılmış beynəlxalq PIRLS qiymətləndirmə tədqiqatının nəticələrinin də bunu təsdiq etdiyini deyib. Həmin tədqiqatın nəticələrinə əsasən, Azərbaycan məktəblilərinin funksional savadlılığı əvvəlki dövrdəkinə nisbətən artıb və bunda müəllimlərlə bərabər valideynlərin də böyük əməyi var.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışında Beynəlxalq oxuların çox aktual mövzuya həsr edildiyini və bu məsələyə konseptual yanaşmanın vacib olduğunu bildirib. Qeyd edib ki, ailə ümumi mənəvi birlik, qarşılıqlı hörmət, qarşılıqlı anlaşma, rəğbət, təmənnasız xidmət əsasında formalaşmalıdır. Ailə dəyərləri müqəddəs tutulmalı, ailə institutu qorunub saxlanılmalıdır.

### "Ailə kainatın kosmik simfoniyasında əsas həyati dəyərdir"

Tallin şəhərinin vitse-meri Vadim Belobrovçev, kulturoloq, tarix elmləri doktoru, professor Fuad Məmmədov çıxış edərək humanist pedaqogikanın yüksək mədəni səviyyəli insanların formalaşmasına müsbət təsir göstərdiyini bildiriblər və beynəlxalq oxuların keçirilməsinin təqdirəlayiq olduğunu diqqətə çatdırıblar.

Fəlsəfə elmləri doktoru, Əməkdar elm xadimi, professor Rəfiqə Əzimova "Azərbaycan ailəsinin ənənələri", kimya elmləri namizədi Klara Mansurova "Xalqların bütövləşməsində ailənin rolu və əhəmiyyəti", Azərbaycan Respublikasının Humanist Pedaqogika Mərkəzinin rəhbəri Riza Xəlilov "Ailə kainatın kosmik simfoniyasında əsas həyati dəyərdir" mövzularında çıxışlar ediblər.

Sonra Beynəlxalq oxular öz işini ustad dərslərində və laborator məşqlərdə davam etdirib. Ustad dərslərində və laborator məşqlərdə ailənin genetik kodu, ailə institutunun cəmiyyətdəki rolu, ailənin uşağın tərbiyəsində və inkişafında rolu, uşaqlarda ailə dəyərlərinin tərbiyə edilməsi, uşaqların tərbiyəsində mühitin əhəmiyyəti, qadınların ailədəki roluna baxış, ailə dialoqunda qarşılıqlı anlaşmanın rolu, ailədə yüksək mədəniyyət hissinin tərbiyəsi, müasir ailə və zamanın çağırışları, valideynliyin dərk edilməsi, valideynlərin təhsili, valideyn əməyinin qiymətləndirilməsi, ailənin mənəvi əsasları, ailə müdrikliyinin inkişafı ilə bağlı maraqlı təqdimatlar edilib, müzakirələr aparılıb.

Tədbirin ilk günündə İmmanuel Kant adına Baltik Federal Universitetinin tələbələrinin ifasında "Fənərçi" tamaşası, E.İ.Mışkinin müəllifi və quruluşçu rejissoru olduğu "3-cü mərtəbə" tamaşası nümayiş etdirilib.

### "Xoşbəxt o adamdır ki..."

Humanist pedaqogika üzrə XVII Beynəlxalq oxular çərçivəsində martın 24-də akademik Ş. Amonaşvilinin "Məhəbbət qanunu" mövzusunda təqdimatı dinlənilib. Akademik bildirib ki, ailə bizim üçün dünyada ən doğma yerdir. Dahi rus yazıçısı və mütəfəkkiri Lev Tolstoyun təbirincə desək, "Xoşbəxt o adamdır ki, öz evində xoşbəxtdir". Xoşbəxt ailə qarşılıqlı sevgi, mənəvi birlik, yaradıcılıq, əməkdaşlıq, qarşılıqlı hörmət və qarşılıqlı anlaşma əsasında formalaşır. Xoşbəxt ailələr daim mənəvi cəhətdən zənginləşir və bu mənəvi zənginləşmə böyük sevinc hissi verərək həyatın tamlığını təmin edir. Ailə institutu uşağın inkişafında mühüm rol oynayır. Uşaq ailədə qazandıqlarını bütün həyatı boyu saxlayır. Ailə uşağın mənəvi inkişafının beşiyidir. Ailədə uşağın özünüdərkə, sevgiyə, qayğıya, diqqətə, hörmətə və ünsiyyətə olan tələbatı yaranır. Uşaq ailədə valideynlərin insanlığının, müdrikliyinin, dözümlülüyünün, başa düşməsinin və sevgisinin sınağıdır. Ailə insan talelərinin canlı laboratoriyasıdır. Ailədə hər bir üzvün fikirləri, hissləri, cəhdləri, arzuları ilə hesablaşmaq lazımdır. Öz ləyaqətini qoruyaraq güzəştə getməyi bacarmaq vacibdir. Ailə həyatın yeganə dəyəridir. Ailənin məhv olması ilə dünya məhv ola bilər. Ailə elə bir yoldur ki, burada hamı bir-birinə öz təyinatını anlamağa və buna uyğun hərəkət etməyə kömək edir. Ailə həyatının başlıca mənası və məqsədi uşaqların tərbiyəsidir. Tərbiyə məktəbinin əsası isə valideynlərin qarşılıqlı münasibətidir. Ailə səmanın yerlə, kişinin qadın ilə, valideynlərin uşaqlarla, sələflərin xələflərlə birliyidir. Bu birlik öz nəslinə və bəşəriyyətə fayda gətirən xoşbəxt insanın tərbiyəsi üçün müəyyən edilib. Valideynlərin bir-birinə olan sevgisi uşağa xoşbəxtlik bəxş edir. Uşaqları ailə dəyərləri ruhunda tərbiyə etmək olduqca vacibdir. Valideynlərin xeyir-duası insanın taleyini yaradır və çətinliklərin qələbəyə çevrilməsi üçün enerji mənbəyi rolunu oynayır.

**Ailə institutu uşağın inkişafında mühüm rol oynayır. Uşaq ailədə qazandıqlarını bütün həyatı boyu saxlayır. Ailə uşağın mənəvi inkişafının beşiyidir. Ailədə uşağın özünüdərkə, sevgiyə, qayğıya, diqqətə, hörmətə və ünsiyyətə olan tələbatı yaranır. Uşaq ailədə valideynlərin insanlığının, müdrikliyinin, dözümlülüyünün, başa düşməsinin və sevgisinin sınağıdır. Ailə insan talelərinin canlı laboratoriyasıdır.**

### Mənəviyyat, sevinc, müdriklik bayramı

Beynəlxalq tədbirin ikinci iş günü, həmçinin, humanist pedaqogikada şəxs, müəllimlik peşəsi, ailənin mənəvi dəyərləri və digər vacib məqamlarla bağlı ustad dərsləri keçirilib, "Mən səni sevirəm, həyat" adlı ədəbi-musiqili kompozisiya təqdim edilib.

Oxuların son günündə isə Ümumukrayna Humanist Pedaqogika Mərkəzinin prezidenti Stanislav Kruqun "Yüzilliklər boyu ailə müdrikliyinin inkişafı", müəllim, psixoloq Marina Qalievanın "Qadının etirafı" mövzusunda təqdimatları dinlənilib. Böyük alimlərin, filosofların, şair və yazıçıların, ictimai və dövlət xadimlərinin ailə həyatlarından gətirilən nümunələr əsasında qurulan təqdimatlar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

"Rusiya dərsliyi" korporasiyasının strateji kommunikasiya və inkişaf məsələləri üzrə vitse-prezidenti, "Bir sentyabr" nəşrlər evinin baş redaktoru Artyom Soloveyçik öz şəxsi ailə nümunəsindən çıxış edərək gözəl, xoşbəxt ailə, qadının ailədə, cəmiyyətdə missiyası ilə bağlı fikirlərini tədbir iştirakçıları-nın diqqətinə çatdırıb.

Sonra təqdimatlarla bağlı fikirlər, təkliflər, təəssüratlar bölüşülüb, səmərəli müzakirələr aparılıb. Müzakirələrdən sonra "Ailə insan mədəniyyətinin beşiyidir" mövzusunda humanist pedaqogika üzrə XVII Beynəlxalq oxuların yekun mərasimi keçirilib. Mərasimdə mükafatlar, hədiyyələr və fəal iştirakçılara sertifikatlar təqdim edilib. ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov, inzibati və iqtisadi işlər üzrə prorektoru Ümid Mehdiyev, Bakı Humanitar Kollecinin direktor müavini Afaq Əliyeva, Azərbaycan Respublikasının Humanist Pedaqogika Mərkəzinin rəhbəri Riza Xəlilov beynəlxalq oxuların təşkilində fəal iştirak etdiklərinə görə mükafatlandırılıblar.

Rektor Cəfər Cəfərov çıxış edərək bildirib ki, müasir dünyamızda humanist pedaqogikanın tərəfdarlarının sayının sürətlə artması sevindirici haldır. Beynəlxalq oxuların keçirildiyi günləri mənəviyyat, sevinc, müdriklik bayramı kimi qiymətləndirən rektor tədbirin ADPU-da keçirilməsinə görə universitetin çoxminlik kollektivi adından Beynəlxalq Humanist Pedaqogika Mərkəzinin rəhbərliyinə təşəkkür edib.

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov qeyd edib ki, son illər ölkəmizdə müxtəlif nüfuzlu və mötəbər tədbirlər yüksək səviyyədə keçirilir. Beynəlxalq oxular bu tədbirlər arasında xüsusi yer tutur. Çünki humanist pedaqogikanın məqsədi cəmiyyətin qarşısında duran vəzifələri həll etməyə qadir olan vətəndaş yetişdirməkdir.

Mərasimdə Humanist Pedaqogika üzrə XVIII Beynəlxalq oxuların mövzuları qəbul olunub, yeri və vaxtı müəyyənləşdirilib, humanist pedaqogikanın Himni səsləndirilib. Bakı Humanitar Kollecinin müəllim və tələbələrinin, həmçinin Bakı şəhəri 75 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında maraqlı və rəngarəng konsert proqramı təqdim edilib. Sonda xatirə şəkli çəkdirilib. Akademik Şalva Amonaşviliyə universitetin hədiyyəsi təqdim edilib.

Qeyd edək ki, tədbir çərçivəsində iştirakçıların Azərbaycanın tarixi və mədəni yerlərinə ziyarətləri də təşkil olunub.

# Səriştə əsaslı kurikulumların təqdimatı

## Bu kurikulumlardan pilot olaraq istifadə edilməsi nəzərdə tutulur

Martın 27-də Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyində Azərbaycanda Peşə Təhsili və Təliminin İnkişafına Avropa İttifaqının (Aİ) dəstəyi layihəsi çərçivəsində hazırlanmış səriştə əsaslı kurikulumların təqdimatı keçirilib.

Tədbirdə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru və əməkdaşları, həmçinin layihənin ekspertləri iştirak edib.

Tədbirdə layihə çərçivəsində hazırlanmış təhsil proqramlarının (kurikulumların) strukturu iştirakçıların diqqətinə çatdırılıb, təhsilalanların qiymətləndirilməsi formaları müzakirə edilib, hazırlanmış kurikulumlara dair rəy və təkliflər dinlənilərək müvafiq düzəlişlər edilib.

Peşə standartları əsasında tərtib edilmiş kurikulumlar sahə üzrə mütəxəssislər, beynəlxalq və yerli ekspertlər, peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyəti tərəfindən birgə hazırlanaraq işəgötürənlər tərəfindən təsdiq edilib. Növbəti mərhələdə kurikulum əsasında tədris materialları və kitabların hazırlanması nəzərdə tutulub. Bu kurikulumlardan növbəti tədris ilindən pilot olaraq istifadə edilməsi, eləcə də qeyd edilən kurikulum formatı əsasında digər təhsil proqramlarının hazırlanması və yenilənməsi planlaşdırılıb.

# SABAH tələbələrinin bilik yarışı keçirilib

Təhsil Nazirliyinin SABAH qrupları layihəsi çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə riyaziyyat, müəllimlik və informasiya texnologiyaları üzrə bilik yarışının birinci mərhələsi keçirilib.

8 ali təhsil müəssisəsini əhatə edən bu yarışda ümumilikdə 500-dən çox SABAH tələbəsi iştirak edib. Yarışlar müvafiq olaraq Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Texniki Universitetində keçirilib.

Yarışmanın birinci mərhələsinin nəticələrinə əsasən, 100-dən artıq tələbə cari ilin aprel ayının sonunda keçiriləcək ikinci mərhələdə iştirak edəcək.

# 1918-ci il azərbaycanlıların soyqırımı və onun tədrisi məsələləri

## Azərbaycan tarixinin hər bir mövzusu milli şüurun formalaşmasına ciddi təsir göstərir



⇦ Əvvəli səh.1

**İntiqam CƏBRAYILOV,**
*pedaqogika üzrə elmlər doktoru, ARTİ-nin Təhsil nəzəriyyəsi şöbəsinin müdiri*

O, bolşevik qiyafəsini geyinmiş daşnak idi. V.İ.Lenindən - Rusiya bolşeviklərinin başçısından təlimat alan S.Şaumyan 1917-ci ildə Bakı Sovetində rəhbərliyi ələ keçirəndən sonra daha da azğınlaşdı. O,1918-ci ilin əvvəllərində Bakıda və Azərbaycanın digər bölgələrində türk-müsəlman əhalisini qırmaq, soydaşlarımızı məhv edərək, bu ərazini erməniləşdirmək üçün Birinci Dünya müharibəsi cəbhələrindən geri çəkilən erməni hərbçilərindən silahlı birləşmələr (Qırmızı Ordu) yaradır, müsəlman-türk əhalisinə, ləzgilərə, talışlara, avarlara və başqalarına qarşı əks-təbliğat işi aparırdı.

Araşdırmalar göstərir ki, 1918-ci ilin yazında Azərbaycanda millidirçəliş prosesi xeyli güclənmişdi. Həmin dövrdə milli demokratik qüvvələrin Azərbaycanın müstəqilliyi, siyasi hakimiyyət uğrunda mübarizəsi bolşevikləri və daşnakları çox narahat edirdi. Ona görə də S.Şaumyan milli qırğın törətməklə Azərbaycan xalqını bu mübarizədən çəkindirmək istəyir, xalqı qorxutmağa, onun azadlığa inamını sarsıtmağa, milli oyanışı beşikdə məhv etməyə çalışırdı.

### Şaumyan mart soyqırımının təşkilatçısı və icraçısı idi

V.İ.Lenin və İ.V.Stalinin rəsmi göstərişi ilə S.Şaumyana, onun rəhbərlik etdiyi antiazərbaycan qüvvələrinə Moskvadan həm maddi yardım (pul, ərzaq, silah və s.), həm də mənəvi dəstək verilirdi. V.İ.Leninin 1917-ci ilin dekabrında Türkiyə ərazisində ermənilərə muxtariyyət verilməsi haqqında sənəd imzalaması da bolşevik-daşnak ittifaqını möhkəmləndirmiş və onların birgə fəaliyyəti üçün daha geniş imkanlar açmışdı. 1918-ci ilin martında S.Şaumyan V.İ.Lenin tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin olunmuşdu. Bu da S.Şaumyanın antiazərbaycan siyasətini həyata keçirmək imkanlarını genişləndirdi. O, azərbaycanlılara qarşı mart soyqırımının əsas təşkilatçısı və icraçısı oldu.

Mart soyqırımını həyata keçirmək üçün əvvəlcə "Evelina" münaqişəsi törədildi. O zaman Azərbaycan milyonçusu H.Z.Tağıyevin Lənkəranda xidmət edən və müəmmalı şəkildə ölən oğlu Məhəmməd Tağıyevin (əslində ermənilərin əli ilə qətlə yetirilmişdi) dəfnində iştirak etmək üçün müsəlman alayının zabitləri də Bakıya gəlmişdilər. Dəfn mərasimi başa çatandan sonra zabitlər yenə də "Evelina" gəmisi ilə Lənkərana qayıtmalı idilər. Bu zaman ermənilər belə bir şayiə yaydılar ki, guya "Evelina" gəmisi ilə qayıdan zabitlər Muğandakı rus malakanları məhv etmək tapşırığı alıblar. Ona görə də Bakıda olan bütün antiazərbaycan siyasi, hərbi qüvvələr "Evelina" gəmisini tərksilah etdilər və gəminin Lənkərana yola düşməsinə icazə verilmədi.

### Təyyarələr havadan, gəmilər dənizdən Bakını bombalayırdı

Martın 30-da saat 16.40-da Bakıda daşnak dəstələri müsəlmanlara ilk atəş açdılar. Sonra bolşevik-daşnak qüvvələri azərbaycanlılar yaşayan "Kərpicxana", "Məmmədli" və digər məhəllələrə hücum etdilər. Tarixi mənbələr göstərir ki, S.Şaumyanın xahişi və V.İ.Leninin göstərişi ilə Rusiyanın Saritsin şəhərindən (sonrakı adı Stalinqrad, indiki Volqoqrad şəhəri) 2 təyyarə göndərilmiş və bu təyyarələr havadan, gəmilər isə dənizdən Bakını bombalayırdılar. Eyni zamanda erməni neft sənayeçilərinin birjalarında qoyulmuş toplardan Abşeronun şimal kəndləri də atəşə tutulurdu.

Erməni cəlladları müsəlman evlərinə soxulur, cinsindən, yaşından asılı olmayaraq hər bir azərbaycanlını ya güllələyir, ya xəncərlə, bıçaqla doğrayır, süngüyə keçirir, uşaqları yanan evlərin, odun-alovun içinə atırdılar.

Şəhərin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdı.

Bakıda martın 31-də azərbaycanlılar müqaviməti dayandırsalar da ermənilər soyqırımı aprelin 3-dək davam etdirdilər. Bolşevik-daşnak birləşmələri "Kaspi" mətbəəsini, "Açıq söz" qəzetinin redaksiyasını, "İsmailiyyə" (indiki Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası) binasını yandırmış, "Təzə pir" məscidinin minarələrini isə top atəşi ilə dağıtmışdılar.

Təkcə Bakıda 30 min azərbaycanlı qətlə yetirilmişdir.

### Azərbaycanın digər bölgələrində də kütləvi qətliamlar

Qeyd edək ki, həmin dövrdə Azərbaycanın digər bölgələrində də, Qarabağda, Naxçıvanda, İrəvanda, Qubada, Muğanda (Salyan, Neftçala bölgəsində), Şamaxıda, Lənkəranda, Zəngəzurda, Cənubi Azərbaycan ərazisində kütləvi qətliamlar törədilmiş, faktiki olaraq azərbaycanlıların soyqırımı baş vermişdir. 1918-ci ilin mart-iyul aylarında -5 ay ərzində Şimali Azərbaycanda 50 mindən çox soydaşımız erməni vandalistləri tərəfindən öldürülmüşdür.

1917-1918-ci illərdə Cənubi Azərbaycanda (Təbriz, Miyanə, Urmiya, Salmas, Xoy və s. yerlərdə) 100 minlərlə azərbaycanlının qətlə yetirildiyi məlumdur. Təkcə Urmiyada 1918-ci il soyqırımında 130 mindən çox azərbaycanlı erməni-aysor quldurları tərəfindən öldürülmüşdür.

1918-ci ilin mart-aprel aylarında Bakıda azərbaycanlılara qarşı törədilən soyqırımı o zaman S.Şaumyan özü də etiraf etmişdi. Bu barədə S.Şaumyanın Sovet Rusiyası hökumətinə verdiyi hesabat həmin hadisənin mahiyyətini aydın ifadə etmək üçün tutarlı bir mənbədir. Həmin hesabatda (1918) yazılır ki, Bakı Sovetinin hərbi qüvvələrinə Daşnaksütun partiyasının 4 min lik hərbi hissələri cəlb edilmiş və bu da nəticədə milli qırğına gətirib çıxartmışdı. Bu hesabatda S.Şaumyanın yazdığı digər fikrə diqqət edək: "Biz buna" (milli qırğına-İ.C.) şüurlu şəkildə getdik, çünki azərbaycanlı siyasi qüvvələr "Bakıda qalib gəlsəydilər, onlar şəhəri Azərbaycanın paytaxtı elan edəcəkdilər".

Təkcə bu fakt S.Şaumyanın, bolşevik-daşnak qüvvələrinin gələcək məqsədlərinin aydın təsəvvür edilməsi üçün kifayət edir. S.Şaumyan təkcə Bakıda deyil, digər bölgələrdə də təşkil olunan qətliam hərəkatına rəhbərlik edirdi. Şamaxıda Stepan Lalayan (Lalayev) və Tatevos Əmiryan (Əmirov), Qubada, Şərqi Anadoluda, Qarabağda Hamazasp Srvantsyan bilavasitə S.Şaumyandan göstəriş alır, müəyyən olunmuş plan üzrə soyqırımı həyata keçirirdilər. S.Şaumyan Şərqi Anadoluda, Azərbaycanda böyük qırğınlar törətmiş Andraniklə də əlaqə saxlayır, Qriqori Korqanov (Korqanyan), Anastas Mikoyan, Baqdasar Avakyan, Prokofiy (Alyoşa) Caparidze, Serqo Martikyan və digər bolşevik-daşnak qaragüruhuna istiqamət verir, onların əslində başəriyyətə, insanlıq əleyhinə yönəlmiş cinayətkar əməllərini müdafiə edirdi.

**Təkcə Bakıda 30 min azərbaycanlı qətlə yetirilmişdir. Qeyd edək ki, həmin dövrdə Azərbaycanın digər bölgələrində də, Qarabağda, Naxçıvanda, İrəvanda, Qubada, Muğanda (Salyan, Neftçala bölgəsində), Şamaxıda, Lənkəranda, Zəngəzurda, Cənubi Azərbaycan ərazisində kütləvi qətliamlar törədilmiş, faktiki olaraq azərbaycanlıların soyqırımı baş vermişdir. 1918-ci ilin mart-iyul aylarında -5 ay ərzində Şimali Azərbaycanda 50 mindən çox soydaşımız erməni vandalistləri tərəfindən öldürülmüşdür.**

### Tarixin obyektiv tədqiqi və tədrisi

Bu gün Azərbaycan Respublikası müstəqil dövlətdir. Müasir dövrdə Vətən tarixinin obyektiv öyrənilməsi, mənbələr əsasında doğru, düzgün tədqiqi, eyni zamanda elmi prinsiplərə uyğun tədrisi üçün geniş imkanlar vardır. Xalqımızın ümummilli lideri Heydər Əliyev tarixin obyektiv tədqiqi və tədrisini həmişə vacib saymış və böyüməkdə olan nəsillərin milli ruhda formalaşmasını müəllimlər qarşısında mühüm bir vəzifə kimi qoymuşdur.

Azərbaycan tarixini tədris edən müəllimlərin bu baxımdan üzərinə böyük məsuliyyət düşür. Təcrübə göstərir ki, Azərbaycan tarixinin hər bir mövzusu, o cümlədən azərbaycanlıların deportasiyası və soyqırımı tarixi ilə bağlı mövzuların mənbələr əsasında sistemli öyrənilməsi təhsilalanların vətəndaşlıq, vətənpərvərlik hisslərinin, milli şüurunun formalaşmasında ciddi təsir göstərir.

Fənn müəllimi azərbaycanlıların soyqırımından bəhs edərkən ilk növbədə həmin dövrə aid tarixi şəraiti diqqətə çatdırmalı, regionda Azərbaycan uğrunda böyük dövlətlərin, xüsusilə Rusiyanın maraqlarını göstərməli, bu dövlətin ermənilərin çirkin niyyətlərini dəstəkləməsi, ermənilərdən alət kimi istifadə olunması səbəblərini izah etməlidir.

Tarixi faktlar göstərir ki, hələ I Pyotrdan başlayaraq Rusiya Qafqazla, ön Asiya ilə, Şərqlə bağlı siyasətində erməni faktorundan bəhrələnməyə çalışmış, hətta öz daxili siyasətində müəyyən böhran vəziyyətindən çıxmaq üçün ermənilərin vasitəsilə milli münaqişələrin törədilməsinə üstünlük vermişdir. Ermənilər məhz belə bir şəraitdən həmişə faydalanmağa, öz mənafelərinə uyğun qənimətlər əldə etməyə çalışmış, azərbaycanlıların soyqırımını törətmiş, Azərbaycan torpaqlarında özlərinə dövlət qurmuş, vətən torpaqlarımızı zaman-zaman hissələrə bölərək işğal etmişlər.

Tarix dərslərində, o cümlədən Azərbaycan tarixinin tədrisində soydaşlarımızın soyqırımından bəhs edərkən təhsilalanların diqqətini bu faktlara yönəltmək, S.Şaumyanın, Lalayanın, Hamazaspın, Andranikin və digər erməni quldurlarının törətdikləri vəhşilikləri izah etmək olduqca vacibdir.

Sovet tarixşünaslığında yanlış olaraq 1918-ci ildə 26 Bakı Komissarının başçısı kimi S.Şaumyanın güllələndiyi barədə məlumat verilir və çox təəssüf ki, tarix saxtalaşdırılır, erməni cəlladlarının iç üzünün açılması üçün dövrün zəruri arxiv sənədlərinin əldə olunması və təhlili qadağan idi.

Azərbaycanın müstəqilliyi dövründə əldə olunan tarixi sənədlərdən məlum oldu ki, S.Şaumyan güllələnən Bakı Komissarları sırasında olmamışdır. İndiki Sahil bağında (Bakıda) xüsusi komissiyanın iştirakı ilə 26-ların qəbirlərinin köçürülməsi zamanı məzardan 23 cəsəd çıxdı. Elmi araşdırmalar sübut etdi ki, S.Şaumyan hələ o zaman -1918-ci ildə Bakıdan qaçmış, Hindistanda yaşamış, orada da antiazərbaycan fəaliyyəti göstərmişdir.

### Soyqırımla bağlı faktlar erməni və rus müəlliflərinə aid mənbələrdə

Azərbaycanlılara qarşı törədilmiş soyqırımla bağlı təkzibolunmaz faktlar mənbələrdə, o cümlədən erməni və rus müəlliflərinə aid mənbələrdə də geniş əksini tapmışdır. Soyqırımı həyata keçirən bolşevik-daşnak rəhbərlərinin yazışmaları, onların hadisələr haqqında fikirləri bu qətliamların məhz ermənilər tərəfindən törədildiyini bir daha təsdiqləyir. Məsələn, 1918-ci il aprelin 28-də bolşevik Ter-Qabrielyan Həştərxandan S.Şaumyana yazdığı məktubunda göstərir ki, Bakıdan gələn ruslardan oradakı vəziyyət haqqında soruşduqda hamısı ermənilər tərəfindən törədilən soyqırımlardan bəhs edir.

Azərbaycan xalqına qarşı zaman-zaman, tarixin müxtəlif mərhələlərində soyqırım törədilsə də, xalq öz varlığını qoruyub saxlamış, mübarizə əzmi nəticəsində XX əsrin sonlarında yenidən müstəqil dövlət qurmuşdur.

### Hər bir Azərbaycan gənci mübarizəyə hazır olmalıdır

Müstəqil Azərbaycan dövlətinin bərpası və inkişafında misilsiz xidmətləri olan, bu dövlətin yaradıcısı, qurucusu, ulu öndərimiz Heydər Əliyev azərbaycanlıların doğma yurdlarından deportasiyası və soyqırımına aid məsələlərin hərtərəfli öyrənilməsi ilə bağlı xüsusi fərman və sərəncam imzalamışdır. 26 mart 1998-ci ildə imzalanmış "Azərbaycanlıların soyqırımı haqqında" Fərman əsasında hər il 31 mart azərbaycanlıların soyqırımı günü kimi ümumxalq, dövlət səviyyəsində qeyd olunur. Dövlətimizin bu məsələyə həssas yanaşması hər bir Azərbaycan vətəndaşını qürurlandırır, gənclərimizdə milli ruhu, əqidəni gücləndirir. Bu gün hər bir Azərbaycan gənci ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi itirilmiş torpaqlarımızın geri qaytarılması üçün hər an mübarizəyə hazır olmalıdır. Ümumtəhsil məktəblərində tarixin tədrisində şagirdlərə tarixi həqiqətlərin daha dolğun, məqsədyönlü çatdırılması vacibdir. Bundan ötrü təbii ki, müəllimlərin yeni təhsil proqramları ilə ardıcıl, sistemli işləmələri, yeni texnologiyalardan səmərəli istifadə etmələri vacibdir.

Azərbaycanlıların soyqırımı tarixinin öyrənilməsi hər bir azərbaycanlının, müsəlmanın, Azərbaycan vətəndaşının şərəf, vicdan və namus işidir.



# Soyqırımı günü ilə əlaqədar sərgidə kitablar nümayiş olunub

AMEA Naxçıvan Bölməsinin Elektron kitabxanasında 31 mart-Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar sərgi təşkil olunub.

Sərgidə Azərbaycan torpaqlarında əsrlər boyu ermənilər tərəfindən törədilən soyqırımlar və onların qurbanlarının faciəvi qətlini əks etdirən sənəd və materiallar, habelə torpaqlarımızın bütövlüyü uğrunda Vətən övladlarının göstərdikləri qəhrəmanlıqlardan bəhs edən toplu, qəzet və jurnal məqalələri nümayiş etdirilir.

Sərgilənən materiallar arasında akademiklər Cəlal Əliyevin və Budaq Budaqovun "Tarixi həqiqətin soyqırımı", akademik İsmayıl Hacıyevin "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri", Yusif Ağayev və Səbuhi Əhmədovun "İstiqlal yürüşü-1918", Elman Cəfərlinin "Naxçıvanda erməni-Azərbaycan münaqişəsi", Fazil Qaraoğlunun "Ermənilər və həqiqətlər: rəsmi sənədlərlə", Mustafa Görüryılmazın "Türk Qafqaz İslam ordusu və ermənilər (1918)", eyni zamanda "Erməni xəyanəti: terror, soyqırımı və deportasiya siyasəti", "Erməni daşnak faşizmi və Azərbaycan", "Qarabağ həqiqətləri", "Dünyanın mənfur milləti: erməni" və bu qəbildən olan digər kitablar nümayiş olunur.

## "Mənim məktəbim"

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Azərbaycan müəllimi" qəzetinin birgə təqdim etdiyi "Mənim məktəbim" layihəsinin məqsədi məktəb direktorlarının rəhbərlik etdikləri təhsil müəssisələrinin özünəməxsusluğu haqqında qələmə aldığı məqaləni, tədrisin və idarəçiliyin təşkilində həm pedaqoq, həm də rəhbər kimi müvafiq düşüncələrini geniş ictimaiyyətə çatdırmaqdan ibarətdir.

Layihədə idarəedənin pedaqoji və ictimai-fəlsəfi baxımdan məktəbin əsas hədəflərinə və özünəməxsusluğuna dair yanaşmasına da xüsusi yer verilir. Layihə çərçivəsində mövcud reallığı əks etdirən, təhsil müəssisələrinin qarşısında duran məsələlərin həlli yollarını göstərən, məktəb idarəetməsinə və uğurlu məktəb modelinə dair orijinal şəxsi fikirlərin və dünya təcrübəsinə əsaslanan faktların yer aldığı məqalələr təqdim olunur.

# Düzgün idarəetmənin keyfiyyətə təsiri

## Dünya təhsilindəki yeniliklərdən milli-mənəvi dəyərlərimizə uyğun şəkildə bəhrələnməliyik



**Esmira QULİYEVA,**
*129 nömrəli tam orta məktəbin direktoru*

Təhsilin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu bir vaxtda ümumi təhsil müəssisələrində inkişafa xidmət edən mühitin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu işdə məktəb direktorlarının üzərinə böyük məsuliyyət düşür. Hər bir ümumi təhsil müəssisəsinin rəhbəri işi elə qurmalıdır ki, yaradılan şərait nailiyyətlərin artmasına xidmət etsin.

Məktəbdə inkişafın əldə edilməsi isə təhsildə keyfiyyətin artırılması istiqamətində addımların atılması, müəllim-şagird-valideyn münasibətlərinin normal şəkildə qurulması, dünya təhsil sistemində baş verən yeniliklərdən bəhrələnmə və digər bu kimi məsələlərlə bağlıdır.

### Təhsildə milli dəyərlər amili

İlk olaraq qeyd edim ki, ümumi təhsilin keyfiyyətini artırmaqla təhsilalanların təlim nəticələrini yüksəltmək, şəxsiyyətyönümlü və nəticəyönümlü təhsil məsələləri üzərində iş aparmaq, həmçinin, dünya təhsilinin qabaqcıl təcrübəsini öyrənərək mütərəqqi cəhətlərindən yararlanmaq qarşımızda duran əsas vəzifələrdəndir. Bu istiqamətlər üzrə əməli işlərin reallaşdırılması üçün bütün imkanlar da mövcuddur. İndi hər bir ümumi təhsil müəssisəsinin pedaqoji kollektivi və rəhbərliyi bu imkanlardan yararlanaraq məktəbdə inkişafı təmin edən iş qurmalıdır.

Bu istiqamətdə direktoru olduğum 129 nömrəli tam orta məktəbdə həyata keçirilən işlərdən bəhs etməmişdən əvvəl bir haşiyə çıxmaq istəyirəm. Belə ki, dünya təhsil sistemindəki yeniliklərdən bəhrələnmədən bu sahədə əsaslı irəliləyişlərə nail olmaq mümkün deyil. Amma hesab edirəm ki, dünya təhsilində baş verən dəyişikliklərdən kortəbii şəkildə istifadə etmək olmaz.

Dünya təhsilindəki yeniliklərdən yararlanarkən mütləq şəkildə nəzərə alınmalıdır ki, Azərbaycan təhsilinin öz tarixi var. Bu təhsil sistemi milli, mənəvi və ümumbəşəri dəyərlərə söykənir.

### İdarəetmənin təşkili və real iş

Əslində hansı yeniliyin tətbiq edilməsindən asılı olmayaraq, məktəbdə uğurun qazanılması birbaşa işin qurulma səviyyəsindən və idarəetmənin təşkilindən asılıdır.

Məktəbimizdə idarəetmə demokratik prinsiplər üzərində qurulub. İdarəetmənin təşkili zamanı pedaqoji heyət, şagird və valideynlər, eyni zamanda, yerli mühit nəzərə alınıb. Məktəbdə hamıya bilik və bacarıqlarını nümayiş etdirmək üçün əlverişli şərait yaradılıb, hər kəs fəaliyyətində sərbəstdir. Müəllim və şagirdlər müxtəlif təkliflərlə çıxış edir, təşəbbüslər irəli sürürlər. Onların təklif və təşəbbüsləri ümumi müzakirəyə çıxarılır və məqbul sayılanları icra edilir. Bəzən belə təkliflər faydalı olur və müəyyən çatışmazlıqların aradan qaldırılmasına kömək göstərir.

Yeri gəlmişkən, məktəbin demokratik idarə edilməsində konkret "resept" yoxdur. Bu zaman mövcud şərait nəzərə alınmaqla, müxtəlif variantlardan istifadə edilə bilər. Əsas məsələ direkor başda olmaqla, məktəb kollektivinin işi düzgün qurmasıdır.

Təcrübəyə əsasən deyə bilərəm ki, məktəb rəhbərliyi irad, nöqsan və təklifləri qəbul etməli, araşdırmalı və nəticə çıxararaq obyektiv qərar verməyi bacarmalıdır. Həmçinin, müəllim əməyinin qiymətləndirilməsi, nüfuzunun artırılması məsələsini diqqət mərkəzində saxlamalıdır. Məktəbdə vəzifə bölgüsü aparılarkən istedad, savad və bacarığa üstünlük verilməli, pedaqoji kollektivin təklifləri nəzərə alınmalı, müəllimlər həvəsləndirilməli və mükafatlandırılmalıdır.

**Məktəbimizdə idarəetmə demokratik prinsiplər üzərində qurulub. İdarəetmənin təşkili zamanı pedaqoji heyət, şagird və valideynlər, eyni zamanda, yerli mühit nəzərə alınıb. Məktəbdə hamıya bilik və bacarıqlarını nümayiş etdirmək üçün əlverişli şərait yaradılıb, hər kəs fəaliyyətində sərbəstdir. Müəllim və şagirdlər müxtəlif təkliflərlə çıxış edir, təşəbbüslər irəli sürürlər. Onların təklif və təşəbbüsləri ümumi müzakirəyə çıxarılır və məqbul sayılanları icra edilir.**

Məktəb idarəçiliyində kollektivdə sağlam psixoloji mühitin yaradılması da xüsusi rol oynayır. Belə ki, məktəb rəhbərliyi təhsil prosesinin bütün iştirakçılarının maraqlarını nəzərə almalı, onların işdən razı qalmasına, kollektivdə mənəvi-psixoloji mühitin xoş keçməsinə nail olmalıdır.

Həmçinin, təhsil müəssisəsinin rəhbəri ünsiyyət qurmaq bacarığına malik olmalıdır. O, müəllim və şagirdlərlə münasibətləri yoldaşlıq səviyyəsində qurmalıdır. Bununla yanaşı, məktəbdə hər kəsdən ümumi qayda-qanunlara riayət olunmasını tələb etməli, nizam-intizamı pozanlara qarşı ciddi tədbirlər görməyi bacarmalıdır. Məktəb direktoru həm də demokratik fikirləri ilə seçilməlidir. Belə olduqda, o, Pedaqoji Şuranın işini qura, məktəb-müəllim-valideyn əlaqələrini tənzimləyə, sinifdənxaric və məktəbdənkənar işləri təşkil edə bilər.

Bir sözlə, məktəb rəhbəri təlim-tərbiyə prosesini tənzimləməlidir. Unutmaq olmaz ki, demokratik, əlverişli pedaqoji mühit təhsildə keyfiyyətə təsir edən amillərdəndir. Əgər məktəb rəhbərliyi düzgün, nəticəyə hesablanmış qərarlar qəbul edərsə, məktəbdə daha yüksək nəticələrin əldə olunmasına zəmin yaranar.

### Məktəbliyə fərdi yanaşma və göstəricilər

Məktəbimizdə şagirdlərlə işin düzgün təşkilinə olduqca ciddi yanaşılır. Burada hər bir şagird diqqət mərkəzindədir. Göstəricilərinin yüksək və ya aşağı olmasına görə fərq qoyulmadan məktəblilərə fərdi yanaşılır, onlara müvafiq istiqamət verilir. Gələcəkdə ali məktəblərə daxil olmaq potensialına malik məktəbliləri daha da həvəsləndirmək üçün müxtəlif tədbirlər həyata keçirilir. Göstəriciləri nisbətən aşağı olan şagirdlərin peşə təhsilinə yiyələnməsi istiqamətində işlər görülür.

Ümumiyyətlə, məktəbdə şagirdlərlə münasibət düzgün qurulmalıdır. Hər bir məktəblinin dərketmə qabiliyyəti, maraqları, şəxsi tələbatları, intellektual səviyyəsi nəzərə alınmalıdır. Onların müstəqil biliklər əldə etməsinə şərait yaradılmalıdır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, məktəbimizdə yüksək nəticələr əldə olunur. Hər il məktəbi bitirən məzunların 70-75 faizi ali məktəblərə daxil olur. Şagirdlərimiz müsabiqə, olimpiada və yarışlarda birinci yerdə qərarlaşır.

Uğurlarımızla yanaşı, gözləntilərimiz də böyükdür. Əsas hədəfimiz qarşıdakı illərdə məktəbin göstəricilərini daha da yüksəltməkdir.



# Müəllim haqqında ehtiyatla danışaq

**Pedaqoji etüd**

## Tarixin müəllimlik missiyası



**Ənvər ABBASOV,**
*Azərbaycan Respublikasının əməkdar müəllimi*

Müasir dünyanın təhsil məkanında hər şey dəyişir. Qlobal dünyanın sərt tələbləri ümumiləşmələrin, daha çox bütövləşmələrə gətirib çıxaran yanaşmaların baş verməsini nizamlayır. Məktəbin, təhsilin yeni görsənişlərindən söhbət açılır. Onun bu günün ölçüləri ilə müqayisədə daha sürətlə dəyişməsindən bəhs olunur.

Bu, doğrudan da belədir. İnsanın formalaşdığı təhsil mühitində ən qiymətli hesab edilən inkişaf və onun işartılarıdır. Bunlar insanın özü qədər dəyərlidir.Təhsil mühitində bu işartılar çoxaldıqca, parıldayaraq güclü işıq selinə çevrildikcə əsl mənasında mənəviyyat mənbəyi yaranır. İnsanlar ona daha çox inanmağa, etimad bəsləməyə başlayırlar. Həm də bu bənzərsiz təhsil mühitinin özəlliklərindən danışmaqla ona pərəstiş edir, sonsuz inam göstərirlər.

Günbəgün və anbaan daha da artan bu inkişaf selində yalnız müəllimlik missiyası dəyişmir. Tarixin müəllimlik missiyası. O missiya ki, həmişə özünün planlı, ardıcıl və sistemli fəaliyyətində müqəddəs elm və təhsil bucağından süzülüb gələn xeyirxahlığa söykənir. O xeyirxahlığa ki, milli əxlaqı, yüksək mədəniyyəti, iti məntiqi, nəhayət, kreativ yanaşmaları formalaşdırır, onları insan övladının varlığına, daxilindəki yenilməz bir gücə, qüvvətə çevirir.

### Müəllimin qüdsiyyəti

Hər kəsin yaddaşında qalan məşhur bir xatirə var: "Bizim dövrümüzdə elə bilirdik ki, müəllim yemək yemir". Bu fikrin yalnız bir anlamı var: müəllim mənəvi varlıqdır, paklıq və təmizlik simvoludur. Qüdsiyyəti onun şəxsiyyətinin yaraşığıdır. Onu ideallaşdıran, bənzərsiz edən də elə budur.

Hər kəs həyatın gözəllik və yaşam fəlsəfəsini müəllimdən öyrənir. Ona hörmət, ehtiram və məhəbbət bəsləyir.

Cəmiyyətin fövqündə dayanan müəllimin fəaliyyət missiyasında daha çox insanı cəmiyyət, millət üçün formalaşdırmaq, inkişaf etdirmək dayanır. Bu, müəllim adı daşıyan hər bir bəşər övladının insanlıq qarşısında olan borcudur. Tarix boyu müqəddəs insanlar, dahi şəxsiyyətlər müəllimlərindən hörmət və ehtiramla danışıblar. Heç kim müəllimindən qınaqla danışmağı fəxarət hesab etməyib. Əksinə, müəlliminin qüdsiyyətini, münasibətlərini xatırlamağı şərəf və ləyaqət sayıb. Lakin bu gün bəşəriyyətin paklıq və təmizlik simvoluna çevrildiyi müəllim haqqında xoş olmayan, onu övladlarımızın gözündə, cəmiyyətimizin nəzərində nüfuzdan salan, aşağılayan fikirlər söyləməyə başlamışıq. Hələ bu azmış kimi onları müxtəlif mətbuat orqanlarında, sosial şəbəkələrdə paylaşırıq. Bu təsadüfləri kütləviləşdirməkdən, cəmiyyətin fövqünə qaldırmaqdan, pafoslu çıxışların obyektinə çevirməkdən çəkinmirik. Axı biz müəllimlik adına yaraşmayan təsadüfi məqamları xarakterik hal kimi kütləviləşdirməklə nə etmək istəyirik? Doğrudanmı, bu yanaşmamızda haqlıyıq? Doğrudanmı, belə təsadüfi insanların hərəkətlərinə görə onun özü yox, müəllim adı, müəllimlik peşəsi qınaq obyektinə çevrilməlidir? Kimdir cavabdeh? Ayrı-ayrı belə təsadüfi insanlarmı, yoxsa müəllim adı, müəllimlikmi? Biz müxtəlif mətbu orqanlarında, mediada özümüzün şəxsiyyətimizi qabartmaqla cəmiyyətdə heç nə qazanmırıq. İtirdiklərimiz isə çoxdur: uşaqlarımızın müəllimlərinə və müəllimliyə olan inamı, məhəbbəti, etiqadı, özündən böyüyə olan hörməti, oxumaq, öyrənmək, təhsil almaq şövqünün azalması… Ən başlıcası isə müəllim adının, müəllimlik şərəfinin bu gün üçün nəsillərimizin təlim və tərbiyəsində daha çox lazım olan imici.

### Müəllimin səxavəti

Müqəddəslərin dediyi kimi, bilmək deyil, onu başqalarına çatdırmaq, öyrətmək əsas şərtdir. Müəllim fəaliyyətinin mahiyyətində də belə bir yanaşma tərzi dayanır. Onlar heç bir təmənna olmadan pay verirlər. Bununla da mənəvi dünyalarını rahatlayır, özləri üçün bir xeyirxahlıq çələngi hörürlər. Ömrünü dərs dedikləri şagirdlərinin həyatına həsr edirlər. Bunu özlərinin zövq mənbəyinə, yaşam tərzinə çevirirlər. Tədris prosesinin harmoniyasında sakitlik tapırlar. Şagirdlərinin uğurlarından sevinir, fəxarət hissi keçirirlər.

Müəllimin qəlb evi bir səxavət məkanıdır. Oradan gələn xeyirxahlıq heç bir göstəriş tanımır. Övladlarımızın mənəvi aləminin, inkişafının, gələcək həyatının təminatçısına çevrilir. Biz bütün hallarda müəllimlərimizə və müəllimliyə borcluyuq. Gəlin, müəllim haqqında ehtiyatla danışaq.

# VI Könüllülük Proqramına sənəd qəbulu başa çatıb

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən VI Könüllülük Proqramına aparılan sənəd qəbulu başa çatıb.

Qeyd edək ki, VI Könüllülük Proqramında iştirak etmək üçün 100-ə yaxın könüllü elektron *(konullu@baku.edu.gov.az)* qaydada sənəd verib.

Onlardan müvafiq meyarlar üzrə uyğun gələn namizədlər müsahibəyə dəvət olunacaqlar.

Müsahibədən uğurla keçən şəxslər aprel ayından etibarən BŞTİ-nin müxtəlif sektorlarında, xidmət bölmələrində və Təlimə Dəstək Mərkəzində 3 ay təcrübə keçmək imkanı qazanacaqlar.

Könüllü kimi fəaliyyətini uğurla başa vuran gənclərin hər birinə BŞTİ tərəfindən müvafiq arayış veriləcək.



Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi artıq 5 ildir ki, könüllü əsaslarla çalışmaq arzusunda olan gənclərlə əməkdaşlıq edir. İndiyədək BŞTİ tərəfindən həyata keçirilmiş ilk Könüllülük Proqramında 15, II Könüllülük Proqramında 26, III Könüllülük Proqramında 35, IV Könüllülük Proqramında 42, V Könüllülük Proqramında isə 29 nəfər müxtəlif sektorlarda, xidmət bölmələrində və Təlimə Dəstək Mərkəzində fəaliyyət göstəriblər. Onlardan 19 nəfəri hazırda BŞTİ-nin əməkdaşıdır.

## Məktəblilər tur-aksiya çərçivəsində Gəncədə olub

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın Abşeron, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Şamaxı, İmişli və Füzuli rayonlarından olan iştirakçıları - IX-XI sinif şagirdləri, onları müşayiət edən qrup rəhbərləri və müəllimlər Gəncə şəhərinə gəliblər.

Tur-aksiya iştirakçılarının Gəncə şəhəri ilə tanışlığı Heydər Əliyev Park Kompleksindən başlayıb.

Məktəbliləri Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Elnur Rzayev, ictimaiyyət nümayəndələri və Şəhər Uşaq Yaradıcılıq Mərkəzinin rəqs kollektivinin üzvləri qarşılayıblar. Rəqqaslar qonaqlar qarşısında maraqlı rəqs nümunələri ilə çıxış ediblər.

İcra hakimiyyəti başçısının müavini layihənin məktəblilərin biliklərinin artırılmasında, dünyagörüşlərinin zənginləşməsində əhəmiyyətindən danışıb. Bildirilib ki, tur-aksiya çərçivəsində şagirdlər bir-birindən gözəl məkanlarda olacaq, ölkəmizin ikinci böyük şəhəri Gəncənin zəngin və çoxəsrlik tarixi, mədəniyyəti haqqında dolğun məlumat əldə edəcəklər.

Sonra şagirdlərə tur-aksiya çərçivəsində tanış olacaqları məkanlardan bəhs edən bələdçi kitabları paylanılıb.

Məktəblilər ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.

Aksiya iştirakçıları Heydər Əliyev Mərkəzində ulu öndərin həyatı və siyasi fəaliyyətini, Gəncə şəhərinə tarixi səfərlərini əks etdirən fotolarla və sənədlərlə tanış olublar.




## "5-6 Aprel döyüşləri və zəfərə doğru!" devizi altında şagirdlərin təqdimatı

Mingəçevir şəhər 13 nömrəli tam orta məktəbdə "5-6 Aprel döyüşləri və zəfərə doğru!" devizi altında sinif rəhbəri olduğum VII "a" sinif şagirdlərinin təqdimatında tədbir keçirilib. Tədbirdə aprel döyüşlərində şəhid olmuş hərbiçilərin ailə üzvləri, valideynləri, "Şəhid ailələri və Qarabağ əlilləri" cəmiyyətinin, şəhər icra hakimiyyətinin nümayəndələri və başqa qonaqlar iştirak ediblər.

Tədbirə başlamazdan əvvəl musiqi sədaları altında meydana Azərbaycanın Dövlət bayrağı gətirilib və Dövlət himni oxunub.

"İşğal olunmuş torpaqların dünəni və bu günü" adlı slayd tamaşaçılara nümayiş etdirilib.

Sonra tədbirdə aprel döyüşlərində torpaqlarımıza erməni təcavüzkarlarının basqınları zamanı qəhrəmancasına şəhid olmuş, yaralanmış döyüşçülər haqqında ümumi məlumat verilib.

Mingəçevir igidləri Adil Adilzadə, Rüstəm Əhmədov, Teymur Qasımov və məktəbimizin valideyni, qayğıkeş ata Rahim Tağıyev haqqında məlumat diqqətə çatdırılıb və həmin şəhidlər haqqında slaydlar göstərilib.

Tədbirin sonunda gizir Rahim Tağıyevin həyat yoldaşı Vüsalə Tağıyeva və digər qonaqlar şəhid valideynləri adından çıxış edərək, dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq ediblər.

**Sevda RƏHİMOVA,**
*Mingəçevir şəhər 13 nömrəli tam orta məktəbin müəllimi*

## Aprel şəhidinin xatirəsi doğum günündə ehtiramla anılıb

Astara rayon Asxanakaran kənd tam orta məktəbində aprel döyüşlərində şəhid olmuş gizir Pəncəli Teymurovun doğum günü ilə bağlı keçirilən tədbirdə igid döyüşçünün xatirəsi ehtiramla anılıb.

Tədbirdə Milli Məclisin deputatı Qənirə Paşayeva, rayon təhsil şöbəsinin müdiri Qızbəs Məmmədova, rayon icra hakimiyyətinin nümayəndələri, şəhidin döyüş yoldaşları, müəllimlər və başqaları iştirak ediblər.

Qeyd edilib ki, Pəncəli Teymurov 1981-ci ildə Astara rayonunun Əzərüd kəndində anadan olub. 1986-1998-ci illərdə Asxanakaran kənd orta məktəbində təhsil alıb. O, 1999-cu ildə Astara Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidməti başa vurduqdan sonra könüllü olaraq 17 il Milli Orduda xidmət edib.

Prezidentin sərəncamları ilə hərbi tapşırıqları uğurla yerinə yetirdiyinə görə gizir Pəncəli Teymurov "İgidliyə görə", aprel döyüşlərindəki misilsiz şücaətinə görə isə ölümündən sonra "Vətən uğrunda" medalları ilə təltif olunub. Anım tədbirində çıxış edənlər gizir Pəncəli Teymurovun aprel döyüşlərində göstərdiyi şücaətindən, igidliyindən danışaraq, onun ömür yolunun gənclərə örnək olduğunu bildiriblər.

Şagirdlər tədbirdə hərbi-vətənpərvərlik mövzusunda şeir söyləyiblər.

Sonra tədbir iştitakçıları şəhid Pəncəli Teymurovun məzarını və ev-muzeyini ziyarət ediblər.

# "Öyrətmək üçün öyrənmək əsas məqsədimdir"

Hökmran Qocayev 1983-cü ildə Gürcüstan Respublikasının Saqareco rayonunda dünyaya gəlib. Orta təhsilini Gəncə şəhər 29 nömrəli tam orta məktəbdə alıb. 2001-2005-ci illərdə Gəncə Dövlət Universitetinin tarix fakültəsində bakalavr, 2005-2007-ci illərdə isə magistr təhsili alıb. Müəllimlərin İşə Qəbulu imtahanında 52 bal toplayaraq Göygöl rayon Yeni Qızılca kənd tam orta məktəbinə tarix müəllimi təyin olunub. Gənc müəllimin peşəsinə olan həvəsini, duyğu və düşüncələrini öyrənmək üçün onunla həmsöhbət olduq.

### *Hökmran Qocayev:* "Müəllimlik cəmiyyətin gələcəyini düşünənlərin peşəsidir"



*- Müəllim peşəsinə sizdə maraq necə yaranıb?*

-Mən hələ orta məktəbdə oxuyan zamanlardan daim müəllimlərimi izləyir, onların davranışlarına fikir verir, cəmiyyətdə müəllimlərə qoyulan hörmət və etibarı görürdüm. Şəxsiyyətlərinə qibtə etdiyim müəllimlərim də olub. Öyrətmək, gələcəyi formalaşdırmaq, onlarla, bəzən də yüzlərlə şagirdin sevimlisinə çevrilmək istəyi məni bu peşəyə həvəsləndirdi.

*- Müəllimlik sizin üçün hansı mənanı ifadə edir?*

- Müəllimlik dünyanın hər yerində, millətlərin gələcəyini formalaşdıran ən vacib və qürurlu peşədir. Cəmiyyətdə təsir gücü ən yüksək olan müəllimlərin, ətrafındakı yüzlərlə, hətta minlərlə şagirdin inkişafında əvəzedilməz rolu vardır. Qəlbimdən keçən sözləri isə "Bir ömür var, o, müəllim ömrüdür" şeirimlə bildirmək istərdim.

*Ətrafına işıq saçan, nur saçan,*
*Ömürlərə cığır salan, yol açan,*
*Yaşlandıqca, qocaldıqca ucalan,*
*Bir ömür var, o, müəllim ömrüdür.*

Məncə, müəllimlik fədakarlığı ilə seçilən, öz şəxsi mənafeyindən çox cəmiyyətin gələcəyini düşünənlərin peşəsidir. Dahi Atatürk demişkən, "Müəllim şam kimidir, özü yanıb tükənərkən ətrafını işıqlandırır".

*- Bildiyim qədər siz həmçinin ədəbi fəaliyyətlə məşğul olursunuz. Sizə stimul verən nədir?*

- Şagirdlərim mənim stimul mənbəyimdir. Əksər şeirlərim təhsil və elmlə bağlıdır. Növbəti illərdə şeirlərimdən ibarət bir kitab çap etdirmək fikrim var. Müəllim nə qədər təkmilləşsə, onu özünə nümunə götürən şagirdlər də inkişaf edib, dövlətimiz, təhsilimiz və gələcəyimiz üçün faydalı insana çevrilərlər.

*- Kənd məktəbində pedaqoji fəaliyyətlə məşğul olursunuz. Hansı çətinliklərlə rastlaşırsınız?*

- Təbii ki, bütün peşələrin özünəməxsus çətinlikləri var. Əlbəttə ki, mənim üçün də kənd məktəbində işləmək asan deyil. Bunlardan nəqliyyat problemini, işlədiyim kənddə daimi yaşayış yerimin olmamasını və s. göstərmək olar. Lakin bunlar peşəmə olan həvəsimin kölgəsində qalan məsələlərdir. Tədrisin keyfiyyətini yüksəltmək, şagirdlərimi yaxşı bir vətəndaş kimi yetişdirmək mənim ən böyük amalımdır.

*- Məktəbdə pedaqoji kollektiv və şagirdlərlə münasibətiniz necədir?*

- Etiraf edim ki, işə başlayana qədər kollektivlə, kənd camaatı və ən əsası şagirdlərlə necə münasibətimizin olacağı məni çox düşündürürdü. Lakin bir müddət çalışdıqdan sonra gözəl kollektivimizin olması, mənim şagirdlərə qarşı olan sevgim, onlarınsa mənə olan hörməti, bir gənc müəllim kimi qoyulan diqqət mənim böyük həvəslə işimi davam etdirməyimə stimul verdi.

Şagirdlərlə daim səmimi münasibət qurmağa, onların cəmiyyətimiz üçün gözəl bir şəxsiyyət kimi formalaşmasına çalışıram. Onların nəinki dərs prosesində, həmçinin dərsdənkənar məqamlarda belə mənimlə dialoqda olmasına şərait yaradıram. Bu da onlarla münasibətdə qarşılıqlı hörmət və etibar yaradan amildir.

*- Gələcəklə bağlı planlarınız maraqlı olardı. İstərdim bir az da bu haqda danışasınız.*

- Pedaqoji fəaliyyətimi inkişaf etdirmək, üzərimdə daim çalışmaq, öyrətmək üçün öyrənmək mənim əsas məqsədimdir. Məktəblilərin tarix fənnini daha asan öyrənməsi üçün "İnfoqrafika" Tarix cədvəllərdə adlı bir dərslik və Təhsil Nazirliyinə təqdim etmək üçün layihə üzərində də çalışıram.

*- Həmkarlarınıza və gələcəkdə müəllim olmaq istəyənlərə tövsiyəniz?*

- Müəllimlik çətin və daim öz üzərində çalışmağı tələb edən, buna baxmayaraq, həm də çox şərəfli, cəmiyyət üçün çox vacib və mühüm peşədir. Bu baxımdan bütün həmkarlara bu şərəfli yolda uğurlar arzulayır, müəllimlik kimi şərəfli bir peşəyə yiyələnmək istəyən namizədlərə isə seçimlərində yanılmadıqlarını bildirmək istərdim.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Mart soyqırımına həsr olunmuş tədbir

Martın 27-də Hacıqabul şəhər 5 nömrəli tam orta məktəbdə 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə müəllimlər, şagirdlər və valideynlər iştirak ediblər. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Aidə Hüseynova və tarix müəllimi Şəlalə Qəhrəmanovanın məruzələri dinlənilib. Məruzələrdə 1918-ci ilin mart ayında ermənilərin Azərbaycanda törətdikləri vəhşiliklər haqqında geniş məlumatlar şagirdlərin diqqətinə çatdırılıb.

Sonda mövzu ilə əlaqədar müzakirə təşkil edilib, soyqırımı ilə bağlı şagirdlərin fikirləri dinlənilib.

Tədbir diskussiya şəklində başa çatıb.

## Hüseyn Cavidin 135 illiyi qeyd olunub

Şəki şəhər 10 nömrəli tam orta məktəbdə Hüseyn Cavidin 135 illik yubileyi qeyd olunub. Tədbirdə təhsil şöbəsinin əməkdaşları, məktəb rəhbərliyi, müəllimlər və şagirdlər iştirak ediblər.

Məqsəd şagirdlərdə ədəbiyyat fənninə maraq yaratmaq, onlarda dünyagörüşün inkişaf etdirilməsi, əsərlərdən müəyyən hissələri səhnələşdirməklə bədii qiraət bacarıqlarını təkmilləşdirməkdən ibarət olub.

Öncə Hüseyn Cavidin həyat və yaradıcılığı haqqında tədbir iştirakçılarına məlumat verilib. Daha sonra məktəbin VII, VIII və XI sinif şagirdləri tərəfindən H.Cavidin "Qız məktəbində", "Şərq qadını", "Mənim tanrım gözəllikdir, sevgidir" şeirləri, "İblis" əsərindən İblisin monoloqu səslləndirilib.

**Mahal MƏMMƏDOV,**
*Şəki Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Fənn aylığının yekununa həsr olunmuş konfrans

Abşeron rayon Xırdalan şəhər Heydər Əliyev Mərkəzində "Azərbaycan dili və ədəbiyyat fənn aylığı"nın yekununa həsr olunmuş konfrans keçirilib. Konfransda təhsil şöbəsinin əməkdaşları, rayonun təhsil işçiləri və şagirdlər iştirak ediblər.

Öncə tədbir iştirakçıları foyedə Azərbaycan ədəbiyyatına həsr olunmuş sərgi ilə tanış olublar.

Təhsil şöbəsinin müdiri Nazilə Məmmədova çıxışında bildirib ki, fənn aylıqlarının keçirilməsinin əsas məqsədi təhsilin keyfiyyətinin yaxşılaşdırılması, fənlərin tədrisinin yüksəldilməsi, şagirdlərdə fənlərə qarşı maraq yaratmaq, gündəlik fəaliyyətə yaradıcı yanaşmalarının təmin olunması və istedadlı şagirdləri aşkara çıxarmaqdır.

Daha sonra təhsil şöbəsinin Azərbaycan dili və ədəbiyyat fənni üzrə metodisti Elmira İsmayılova aylıq çərçivəsində rayon ümumtəhsil məktəblərində görülmüş işlər haqqında məruzə ilə çıxış edib. Tədbirdə şagirdlər səhnəcik göstərib, şeir söyləyib, mahnı oxuyub və rəqs ediblər.

Sonda nominasiyalar üzrə qaliblərə fəxri fərmanlar təqdim olunub.

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Pedaqoji Universiteti

Aşağıda adıçəkilən kafedralar üzrə dosent və professor vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

| | | |
|---|---|---|
| Cəbr və həndəsə kafedrası | - professor | - 0,5 ştat |
| Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrası | - dosent | - 3 ştat |
| Riyaziyyat və onun tədrisi metodikası kafedrası | - dosent | - 1 ştat |
| İbtidai təhsilin pedaqogikası və metodikası kafedrası | - dosent | - 1 ştat |
| Korreksiyaedici təlim kafedrası | - dosent | - 2 ştat |
| Musiqi və onun tədrisi metodikası kafedrası | - dosent | - 3 ştat |
| Ümumi psixologiya kafedrası | - dosent | - 1 ştat |
| Ədəbiyyat və onun tədrisi metodikası kafedrası | - dosent | - 1 ştat |
| Müasir Azərbaycan dili kafedrası | - dosent | - 0,5 ştat |
| İqtisadi coğrafiya və CTM kafedrası | - dosent | - 1 ştat |
| Ümumi pedaqogika kafedrası | - dosent | - 1 ştat |
| İnsan və heyvan fiziologiyası kafedrası | - dosent | - 1 ştat |
| Fəlsəfə və sosial fənlər kafedrası | - dosent | - 0,5 ştat |

**Qeyd:** müsabiqədə iştirak etmək üçün sənədlər 30 mart 2018-ci il tarixdən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər.

1. *Rektorun adına ərizə;*
2. *Kadrlar uçotunun şəxsi vərəqəsi;*
3. *Tərcümeyi-hal;*
4. *Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;*
5. *Elmi və elmi-metodiki əsərlərin siyahısı.*

**Ünvan:** AZ-1000, Bakı şəhəri, Ü. Hacıbəyli küçəsi, 68 Otaq 111 (I mərtəbə)

**Əlaqə telefonu:** +994(012) 498-08-16

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

Aşağıda adıçəkilən kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedra üzrə 0.5 ştat, professor**

| | |
|---|---|
| Riyazi analiz və funksiyalar nəzəriyyəsi | - 1 yer |

**Kafedralar üzrə dosent**

| | |
|---|---|
| Bərk cisim və yarımkeçiricilər fizikası | - 1 yer |
| Xarici dillər | - 1 yer |
| Pedaqogika və psixologiya | - 2 yer |
| Tarix və onun tədrisi metodikası | - 1 yer |

**Kafedralar üzrə 0.5 ştat, dosent**

| | |
|---|---|
| Azərbaycan dili və onun tədrisi metodikası | - 1 yer |
| Azərbaycan və Şərqi Avropa xalqları tarixi | - 1 yer |

**Kafedralar üzrə baş müəllim**

| | |
|---|---|
| Diferensial tənliklər və optimallaşdırma | - 1 yer |
| Kimya və onun tədrisi metodikası | - 1 yer |
| Mülki müdafiə, tibbi və fiziki hazırlıq | - 1 yer |
| Maliyyə və mühasibat uçotu | - 1 yer |
| Azərbaycan dili və onun tədrisi metodikası | - 1 yer |
| Azərbaycan və xarici ölkələr ədəbiyyatı | - 1 yer |

**Kafedralar üzrə assistent**

| | |
|---|---|
| Fizika və onun tədrisi metodikası | - 1 yer |
| Kimya və onun tədrisi metodikası | - 1 yer |
| Neft kimyası və kimya mühəndisliyi | - 2 yer |
| Biologiya və onun tədrisi metodikası | - 1 yer |

**Kafedra üzrə müəllim**

| | |
|---|---|
| Azərbaycan dili və onun tədrisi metodikası | - 1 yer |

**Qeyd:** Sənədlər bu elan dərc olunan gündən bir ay müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər.

AZ-5008, Sumqayıt, 43-cü məhəllə, SDU, otaq 233

**Əlaqə telefonları:** (012) 448-08-37, Əlavə: 1-16, (018) 642-15-06

**REKTORLUQ**

## "Apple" virtual klaviatura hazırlayıb

"Apple" şirkəti qadcet kimi istifadə olunan yeni sensor paneli patentləşdirib. İstehsalçılar daha əvvəl noutbuk üçün buna bənzər qurğu - "Touch Bar" hazırlamışdılar. OLED-displeydən klaviatura, ikinci ekran və ya planşet kimi istifadə etmək mümkün olacaq. Həmçinin bildirilib ki, hər iki ekran bir-biri ilə qarşılıqlı təsir edə və vahid ekran ola biləcək.

**www.belta.by** saytının məlumatına görə, qurğunun iki variantda tətbiq olunması nəzərdə tutulub: Şarnir mexanizmi ilə birləşən iki ekrana malik "MacBook"un yaradılması və aksessuar kimi istifadə olunacaq sensor OLED-panel. Lakin "Apple" pərəstişkarları yeni klaviatura ilə işləməyin çox narahat olacağını bildiriblər.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4939, **Sifariş** 902

**Məsul növbətçi:** N.Rəhimov

## Etibarsız sayılır

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2007-ci ildə Karakoç Sedat Ziyyatin oğluna verilmiş BC-112007 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1995-ci ildə Babayeva Yaqut Ələsgər qızına verilmiş AB-I-059845 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayonu** Qəsil kənd tam orta məktəbini 2009-cu ildə bitirmiş Cəlilova (İslamova) Ülviyyə Rəhim qızına verilmiş B-663994 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayonu** Əhmədalılar kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Süleymanov Tural Tahir oğluna verilmiş B-118491 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayonu** Yerfi kənd tam orta məktəbini 1982-ci ildə bitirmiş Nəsrullayev Mehdi Qumalat oğluna verilmiş 633332 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Rabitə Elektro Texnikumu** tərəfindən 1986-cı ildə Ağayev Saleh Xudaverdi oğluna verilmiş KT-019145 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 195 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Qasımov Samir Balağa oğluna verilmiş A-659476 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 34 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Soltanov Ruslan Soltanəhməd oğluna verilmiş 469950 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Bədəlov Ceyhun Ələsgər oğluna verilmiş A-530645 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 37 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Vəliyəddinli İlkin Kazım oğluna verilmiş A-118981 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2006-cı ildə Tağıyeva Aygün Qulu qızına verilmiş B-055249 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 42 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Əliyeva Gülnarə Əvəz qızına verilmiş A-167978 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 9 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Hüseynli Xəzər Azər oğluna verilmiş A-207565 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**84 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1990-cı ildə Akulenko Mixail Viktoroviçə verilmiş Б-501057 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci** tərəfindən 2014-cü ildə Məmmədov Vaqif Zaur oğluna verilmiş AA-053737 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı** şəhər 221 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Tağıyeva Günay Novruzəli qızına verilmiş A-584730 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Şirinbəy kənd tam orta məktəbini 1996-cı ildə bitirmiş Sərdəlov Aydın Sərdəl oğluna verilmiş 055934 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 61 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş İdrisov Ramis Çingizoviçə verilmiş A-587702 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2010-cu ildə Qəhrəmanov Vasif Məhəmməd oğluna verilmiş B-198373 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayonu** Kürdlər kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Sultanova Ruhiyyə Rəhim qızına verilmiş A-037729 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayonu** Muğanlı kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Quliyev Vahab Müslüm oğluna verilmiş A-186578 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əhmədov Məzahir Rəfael oğluna verilmiş B-685124 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2007-ci ildə Orucov Emil Vidadi oğluna verilmiş B-101551 nömrəli bakalavr diplomu və əlavəsi, 2014-cü ildə verilmiş MNB-029395 nömrəli magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbin IX sinfini 1988-ci ildə bitirmiş Mahmudova Sevinc Oqtay qızına verilmiş A-365326 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə İsamalıyeva Turac Elimxan qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Kijəbə qəsəbə orta məktəbini 2008-ci ildə bitirmiş Baxşiyev Turan İgid oğluna verilmiş B-532714 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Şahağac kənd 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Mirzəyeva Könül Bəxtiyar qızına verilmiş A-038144 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 99 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Səfərəliyev Ramin Allahverdi oğluna verilmiş B-029775 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayonu** Bozayran kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Babazadə Rəsmiyyə Qələmirzə qızına verilmiş A-039787 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Həsənova Lamiyə Vahid qızına verilmiş A-747019 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 10 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Hümbətov Nicat Vasif oğluna verilmiş E-008943 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayonu** Böyük Dəhnə kənd 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədov Xəyal Həmid oğluna verilmiş B-643053 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Köhnəqışlaq kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Qasımov Rəşad Afrasiyab oğluna verilmiş B-054562 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayonu** Daşdalıqcar kənd ümumi məktəbinin VIII sinfini 1986-cı ildə bitirmiş Quliyeva Nəzminə Polad qızına verilmiş 046083 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** 1 nömrəli Nazırlı kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Əliyeva Nabat Ruhi qızına verilmiş A-675146 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Ağayeva İlahə Emil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** Əmirli kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Tağıyeva Röyalə Bəxtiyar qızına verilmiş B-059552 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayonu** Dəymədağlı kənd tam orta məktəbinin VIII sinfini 1977-ci ildə bitirmiş Salahova Həyat Əhməd qızına verilmiş A3-I-597973 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Siyəzən rayonu** Zarat kənd tam orta məktəbinin IX sinfini 2010-cu ildə bitirmiş Mirzəyeva Leyla Gülsafa qızına verilmiş A-945440 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayonu** Xanbulan kənd tam orta məktəbinin IX sinfini 1992-ci ildə bitirmiş Muradova Nayidə İmaməli qızına verilmiş A-884807 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Namaz Manafov ailəsi ilə birlikdə Zərifə və Aslan Dəmirovlara əzizləri

**VƏLƏD HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Namaz Manafov ailəsi ilə birlikdə Mingəçevir Dövlət Universitetinin pedaqoji fakültəsinin dekanı Nizami Zeynalova

**ATASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Diplomsuz gələcək

## Dəyişən təhsilə indidən uyğunlaşmayan gecikəcək

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Universitet onlayn-kurslarının mövcudluğunu Kaku “əla ideya” hesab edir. Onun sözlərinə görə, yaxın 50 ilin təhsili məhz bu ideya üzərində təşəkkül tapacaq. İndiki universitetlər qalacaq, ancaq əsas etibarilə virtual fəaliyyətdə olacaqlar. Kim ki, ənənəvi təhsil ocaqlarına müraciət edəcək, onun barəsində belə deyəcəklər: “O, öz təhsilini özü təşkil edə bilmədi”.

### Diplomlar yoxa çıxacaq

M.Kaku hesab edir ki, yaxın gələcəkdə təhsil hər hansı vaxt və ərazi məhdudiyyəti ilə çərçivələnməyəcəyindən diplomlara da ehtiyac qalmayacaq. Çox güman ki, xüsusi sertifikatlaşdırma mərkəzləri fəaliyyətdə olacaq. Mütəxəssislər belə mərkəzlərdə imtahanlar verəcəklər və nəticələrə əsasən ya hansısa vəzifəni əldə edəcəklər, ya da əksinə. İstisna deyil ki, zamanla xüsusi ballar şkalası tətbiq olunmağa başlayacaq ki, bu sistemə əsasən insanın cəmiyyətdəki yeri müəyyən ediləcək. Artıq ABŞ, Yaponiya, Kanada, Avropanın bir sıra ölkələrində portfolio sistemi aktualdır. Vətəndaş diplomlar, sertifikatlar, arayışlarını toplayıb işəgötürənə təqdim edir və iş alır. Gələcəkdə intellektual baqaj təhsildə əsas amilə çevriləcək.

Bəs, gələcəkdə uğurlu insan olmaq üçün nə etmək lazımdır? Yapon fizik düşünür ki, ilk növbədə robotlar üçün yad olacaq cəhətləri inkişaf etdirmək lazımdır: kreativlik, təsəvvür, təşəbbüs, liderlik xüsusiyyətləri. “Cəmiyyət tədricən məhsul iqtisadiyyatından intellektual-yaradıcı iqtisadiyyata keçir. Toni Bler deyirdi ki, İngiltərənin rok-n-rolldan olacaq gəlirləri mədənlərdən əldə etdiklərindən çox olacaq. Ona görə də gələcəkdə o ölkələr uğur qazanacaq ki, məhsul bazarları ilə koqnitiv-kreativ potensialı arasında tarazlıq yarada biləcəklər. O xalqlar ki, tək kənd təsərrüfatına bel bağlayıblar, onlar kasıbçılığa məhkumdurlar” - deyə Kaku söyləyir.

M.Kaku düşünür ki, gələcəkdə ən gəlirli sahələr biotexnologiya, nanotexnologiya və süni intellekt olacaq. Onun fikrincə, tək təhsil deyil, həm də iş sistemi dəyişir. Tezliklə fabriklərdə insan qalmayacaq, ancaq intellektual sferada çoxlu iş yeri açılacaq. Ən əsası, vaxtlı-vaxtında qərar qəbul edib dəyişməkdir: “İnsanların əksəriyyətinin problemi odur ki, inertdilər, kütləyə baxmadan heç nə edə bilmirlər. Uğur qazanmaq istəyirsinizsə, edəcəyiniz ilk iş bu olmalıdır - digərlərinə oxşamamaqdan qorxmayın, öz həyatınızın məsuliyyətini üzərinizə götürün, tələşlanmayın ki, hər şeyi dəyişirsiniz və yeni yolla gedirsiniz”.

M. Kaku deyir ki, yaxın gələcəkdə həyatımızda elektrik cərəyanı hansı rolu oynayırsa, internet də eyni mahiyyət kəsb edəcək: “Yüz il bundan əvvəl elektrik enerjisi möcüzə idi. İndi hamımızın başı qarışıb smartfona, heç yadımıza düşmür ki, bu elektrik enerjisi axı hardandır? Bunu adi qəbul edirik. Yerdə ot, ağac bizim üçün nədirsə, elektrik enerjisi də odur. Yaxın zamanlarda internet də belə olacaq. Xırda çiplər saqqızdan ucuz satılacaq. Ətrafımızda nə varsa hamısı qlobal şəbəkəyə çıxışa malik olacaq. Biz vahid intellektual mühitdə yaşayacağıq. İnsanlar sanki sehrbaz olacaqlar: daima cansız materiya ilə ünsiyyət quracaq, jestlərlə, səslə əşyalara göstərişlər verəcəklər ki, onu et, bunu et”.

Təbii ki, cəmiyyət dəyişəcək. Çünki hər bir fərdin zehni və şəxsiyyəti rəqəmsallaşacaq. Kaku proqnozlaşdırır ki, kompüterlər bizim beynimizdə olan məlumatları köçürüb iri kitabxanalarda saxlayacaq və lazım olarsa, bu informasiyanı digər beyinlərə köçürəcək. Hazırda Massaçusets Texnoloji İnstitutunda bu qəbildən araşdırma aparılır. Bu baş verəndən sonra istehlak münasibətləri də dəyişəcək, çünki bir nəfər digərinin nə istədiyini onun “beyninə girməklə” öyrənə biləcək və ona ehtiyac duyduğunu satacaq. İnsan hətta müəyyən mənada ölməz olacaq. Bir nəfərin beynində olan bütün məlumatlar toplanacaq və bunun əsasında rəqəmsal şəxsiyyət yaradılacaq. O isə heç vaxt ölməyəcək.



### Mitio Kaku kimdir?

2013-cü ildə “New York Times” qəzeti Kakunu Nyu-York şəhərinin ən ağıllı sakinlərindən biri elan edib. Yapon əsilli fizik “qara dəliklər” və kainatın genişlənməsinin sürətlənməsi proseslərinə dair araşdırmalarla yadda qalıb, “Simlər nəzəriyyəsi”nin müəllifidir. Alim 8 bestseller kitaba müəlliflik edib, BBC və “Discovery” kanallarında verilişləri var.

Kaku dünyaca məşhur fizika müəllimidir, Nyu-York Universitetində dərs deyir, aktiv formada dünyanı gəzir və müxtəlif ölkələrdə mühazirələrlə çıxış edir.

### Maliyyə böhranı, yoxsa qeyri-effektiv təhsil?

Hazırda dünyada həyat şərtlərini diqtə edən maliyyə böhranı yüzminlərlə insanı işsiz qoyub. Bu reallıq tək böhrandan qidalanır, yoxsa qeyri-effektiv təhsilin də günahı var? Kaku hesab edir ki, hazırda mövcud olan təhsil sistemi keçmişin mütəxəssislərini hazırlayır. Biz onlara təhsil veririk ki, artıq mövcud olmayan işlərə getsinlər, elə intellektual alətlərlə təmin edirik ki, çoxdandır effektiv deyillər. Ona görə də dünyada işsizlərin faiz göstəricisi yüksəkdir: “Axı biznes sahibi belə məzunları niyə işə götürməlidir? Nə lazımi savadları var, nə təcrübələri. Nəticə ondan ibarətdir ki, dünyanın aparıcı şirkətlərinin əksəriyyətində 50-60 yaşlılar ağalıq edir. Ona görə də təhsil sferasının mütəxəssisləri kardinal şəkildə tədris proqramlarını nəzərdən keçirirlər. Burada ilk növbədə təbiət elmlərinə önəm vermək lazımdır, çünki gələcəyin texnologiyaları ilə birbaşa əlaqəlidirlər”.

Bu halda belə bir sual meydana gəlir: axı insanların heç də hamısı intellektual əməyə meyilli deyil. Bu halda robotların əhatəsində onlar necə baş çıxaracaqlar? M.Kakunun qənaətinə görə, süni intellekt insanı tam şəkildə əvəz etməyə qadir deyil. Düzdür, elə vaxt gələcək ki, robot insandan ağıllı olacaq, ancaq yenə də tam əvəz edə bilməyəcək: “Bizim maşınların qarşısında təsəvvür etmədiyimiz qədər üstünlüyümüz var. Məsələn, robotlarda obrazlı düşüncə yoxdur. Onların təsəvvürü, intuisiyaları yoxdur. Ona görə də bağbanların, tikinti, fiziki əmək sahiblərinin işləri yaxşı olacaq, çünki onlar qərarların avtomatik yerinə yetirilməsi ilə məşğul deyillər, müxtəlif mərhələlərə fərqli yaradıcı yanaşma tələb olunur. Mən sizə “fəhlə” deyərkən proqramlaşdırma, veb-dizayn, 3D-layihələndirməni nəzərdə tuturam. İnsan hansı sahədə işləyir işləsin, onun yaradıcı yanaşması olmalıdır, dəyişən mühitdən tez baş çıxara bilməli, intuisiyasını inkişaf etdirməlidir”.

Qəzetimizin ötən saylarında gələcəyin peşələri barədə məlumatlar vermişik. M.Kakunun sözlərinə görə, qarşısıalınmaz inkişaf nəticəsində ilk növbədə vasitəçi peşələr sıradan çıxacaq. Məsələn, texniki yeniliklər imkan verəcək ki, aşağı ixtisaslı həkimlərə ehtiyac olmasın. “Əgər siz özünüzü nasaz hiss etsəniz, yataqdan durmadan virtual həkim-robota müraciət edəcəksiniz və simptomlarınız barədə danışacaqsınız. Heç bir yerə getmək lazım deyil, heç düyməyə də basmağa ehtiyac yoxdur: robot özü sizə lazımi sualları verəcək: haranız ağrıyır, necə ağrıdır və s. Sonra o, eyni simptomlu xəstələrə dair iri məlumatlar bazasından çıxış edərək sizin diaqnozunuzu qoyacaq. Belə robotlar hətta bəzi analizləri də götürə biləcəklər. Məsələn, infraqırmızı kamera vasitəsilə hərarətinizi ölçəcəklər. Odur ki, yalnız ağır xəstəliklər zamanı insan-həkimin köməyinə müraciət edəcəyik. Biz demək olar ki, gün ərzində robot-həkimə daha çox müraciət edəcəyik, nəinki əl-üzümüzü yuyacağıq. Süni intellektə əsaslanan bu kəşflər tibbi ciddi inkişaf etdirəcək, insanların həyatı uzanacaq” - deyə alim düşünür.

### Gələcək Mitio Kakunun gözü ilə

M.Kakunun yüzlərlə futuroloji proqnozları özünü doğruldub. Bəs o, gələcək haqqında daha nələri gözləyir?

1. 2027-ci ildə bir insan beynindən məlumatları digər beynə, yaxud internetə köçürmək mümkün olacaq. Bu, internetin “breynnet”ə, yəni “beyin şəbəkəsi”nə çevrilməsilə nəticələnəck.
2. 2029-cu ildə robotlar bütün sahələrdə insanlardan ağıllı olacaqlar, ancaq bundan qorxmaq lazım deyil. Kaku hesab edir ki, robotların intellekti “həşərat intellektidir”, yəni konkret və lazım olan məsələlərin həllinə yönəlib.
3. 2040-cı ildə nanotexnologiyalar imkan verəcək ki, proqramlaşdırılmış materiyadan əşyalar düzəldilsin. Bu əşyalar sahibinin istəyinə uyğun olaraq formasını dəyişə biləcək.
4. 2050-2060-cı illərdə Marsda məskunlaşmaya start veriləcək: özəl şirkətlər yaşayış məskənləri yaradacaqlar və oraların sakinləri Yerin köməyi olmadan yaşaya biləcəklər.
5. 100 ildən sonra Yer kürəsində ümumdünya hökuməti mövcud olacaq, dövlət orqanları müştərək fəaliyyət göstərəcəklər, onların qərarları milli hökumətlərin qərarlarından üstün hesab ediləcək.

# ABŞ və Kanadanın 52 alimi xüsusi təqaüdə layiq görüldü

## Onların arasında həmyerlimiz də var

**Oruc MUSTAFAYEV**



Amerikanın “Simons” Fondu (The Simons Foundation) 2018-ci il üzrə ABŞ və Kanadanın nüfuzlu universitetlərində tədqiqatlar aparan 52 alimə təqaüd ayırıb. Onların arasında həmyerlimiz, ABŞ-ın Minnesota Universitetinin Riyaziyyat Məktəbinin professoru Anar Əhmədov da var. A.Əhmədov riyaziyyat və nəzəri fizika üzrə xüsusi təqaüdə (Simons Fellows in Mathematics and Theoretical Physics Announced) layiq görülən ilk azərbaycanlı alim-tədqiqatçıdır. Fond alimin kiçikhəcmli və simplektik topologiya üzrə tədqiqatlarını yüksək qiymətləndirib.

1994-cü ildən başlayaraq gənc tədqiqatçılara elmi ictimaiyyətin diqqətinə səbəb olmuş ciddi elmi işlərinə görə təqaüd ayıran fond onları elmi liderlərin gələcək nəsillərinin parlaq ulduzları kimi qiymətləndirir. Mükafatlar səkkiz elmi sahə - kimya, informatika, iqtisadiyyat, riyaziyyat, təkamül və hesablama molekulyar biologiya, neyro-biologiya, fizika və okeanoqrafiya üzrə verilir. Namizədlər yaşlı alimlər qrupunun dəstəyini almalıdır. Təqaüdün həcmi 100000 ABŞ dollarıdır. Bu vəsait sonrakı tədqiqat üçün istifadə ediləcək.

Qeyd edək ki, Anar Əhmədov ABŞ-ın Minnesota Universitetində riyaziyyat və dəqiq elmlər üzrə professordur. O, riyaziyyat sahəsində elmi dərəcəni Kaliforniya Universitetində qazanıb. Həmçinin Vyana, Kolumbiya, Zürih universitetlərində və Georgia Texnologiya İnstitutunda dərs deyib. A.Əhmədov bu il Minnesota Universitetindən namizədliyi yüksək elmi təqaüdə layiq təqdim olunmuş yeganə tədqiqatçıdır. Fondun təqaüdünə layiq görülənlər arasında ABŞ-ın Massaçusets Texnologiya İnstitutu, Harvard, Yel, Pensilvaniya, Kornell, Kaliforniya Berkli, Con Hopkins, Çikaqo, Miçiqan, Kanadanın Toronto kimi universitetlərində çalışan alimlər yer alıb. Həmyerlimizin adıçəkilən nüfuzlu universitetlərin tədqiqatçıları arasında olması qürurvericidir.

# Nitqi mətnə çevirən proqram təqdim olunub

**Yusif ƏLİYEV**



İspaniyanın Barselona şəhərində keçirilən və mobil sənayenin ən böyük sərgisi olan “Mobile World Congress 2018”də nitqi mətnə çevirən proqram təqdim olunub.

**www.techcult.ru** saytının məlumatına görə, bu kimi proqramların ümumi çatışmazlığı mətnin qeyri-dəqiqliklə tərtib edilməsidir. Keyfiyyətli proqramlar isə yüksək qiymətə malikdir. “Otter” onlardan real vaxt rejimində nitqi mətnə çevirən süni intellektlə təchiz edilməsi ilə fərqlənir. Süni nitqin sintezi üçün artıq perspektivli alqoritmlər yaradılıb ki, sözügedən proqram da onlara əsaslanır. Bu alqoritmlərdən biri də yüksək dəqiqliyi ilə seçilən “Google DeepMind”dır.

Süni intellektə əsaslanan ödənişsiz proqram “Yazı” düyməsini sıxmaqla işə başlayır. İstifadəçi danışmağa başladıqda smartfonun ekranında mətnin ilkin variantı meydana çıxır. Fikir tamamlandıqdan sonra süni intellekt mətni redaktə edir. “Otter” müsahibə zamanı mətni aydın replikalara bölərək, hər iki iştirakçını müəyyən edir. Bunun üçün müsahibə alan şəxs dialoqa başlamazdan əvvəl mikrofona bir neçə cümlə söyləyərək, öz “səs izi”ni qeyd etməlidir.

Proqramın çatışmazlıqlarına durğu işarələrinin qoyulması ilə bağlı çətinlikləri, izdihamlı yerlərdə və ya səs-küylü məkanlarda işləmə problemlərini aid etmək olar. İstehsalçılar proqramı zamanla təkmilləşdirərək bu kimi problemləri aradan qaldıracaqlarını bildiriblər.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Aşağıda adıçəkilən kafedralarda vakant vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

| | | |
|---|---|---|
| Ədəbiyyat və dillər kafedrası | - dosent | - 1 yer |
| Təsviri sənət kafedrası | - baş müəllim | - 1 yer |
| | - müəllim | - 1 yer |
| Dizayn və dekorativ tətbiqi sənət | - müəllim | - 1 yer |
| Təsviri sənət tarixi və nəzəriyyəsi | - müəllim | - 1 yer |
| | - müəllim | - 0,5 yer |
| İnstrumental ifaçılıq | - müəllim | - 1 yer |
| Kino-televiziya sənətləri | - müəllim | - 2 yer |
| Kinoşünaslıq və ekran dramaturgiyası | - baş müəllim | - 2 yer |

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini Azərbaycan Respublikası təhsil nazirinin 07.08.1996-cı il tarixli, 401 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında” sənədin tələblərinə uyğun elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərə bilərlər:

AZ-1065, Bakı şəhəri, İnşaatçılar 39
**Əlaqə telefonu:** 599-00-54 (daxili-100)

Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları da iştirak edə bilərlər.

**REKTORLUQ**